

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Seçki Qərargahının növbəti iclası keçirilib



4

# İnkişaf və sabitlik dövrü: 2003-2023-cü illər!




8

# SƏS


№ 234 (6917)

21 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik


# Qarabağ klanının sülhə mane olan MANİPULYASİYA ALƏTİ



5

## "Prezident seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün ölkə üzrə geniş imkanlar yaradılıb"



7

## "Media Savadlılığı" konfransı keçirilib




4

## Diş kökü infeksiyasının dəhşətli FƏSADLARI



10

## Qarabağın iş imkanları bölgəyə nə vəd edir?



15

## Rusiyalı nüvə fiziki: "Metsamor AES region üçün böyük təhlükə mənbəyidir"



13

# Qədim yurd yerlərimizdə quruculuq və inkişaf dövrü başlayır!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Xocalı rayonlarına səfər ediblər

**Dekabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım rayonun Qırmızı Bazar qəsəbəsində olublar.**

Qəsəbə 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Qırmızı Bazar qəsəbəsi separatçılardan təmizlənib.

Qeyd edək ki, Qırmızı Bazar Xocavənd rayonunun iki qəsəbəsindən biridir və olduqca əlverişli strateji mövqedə, mühüm yolların kəsişməsində yerləşir. Qırmızı Bazara 1947-ci ildə qəsəbə statusu verilib. Qəsəbənin ərazisi təbii sərvətlər, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. İşğaldan əvvəl qəsəbədə gövdəsinin diametri 600 santimetr, hündürlüyü 25 metr, yaşları min və iki min il olan iki Şərq çinarı qədim təbiət abidəsi kimi qorunurdu. Qəsəbə, eyni zamanda, kənd təsərrüfatı və turizm potensialına malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 20-də Xocavənd rayonunun Şıx Dursun kəndində olublar. Dövlətimizin başçısı və birinci xanım kənddəki "Çinar müqəddəs yer" abidə kompleksinə baxış keçiriblər.











Qeyd edək ki, Qırmızı Bazar qəsəbə inzibati ərazisi dairəsinə daxil olan Şıx Dursun kəndi 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

Kənddə 2500 ilə qədər yaşı olduğu təxmin edilən çinar nəinki Azərbaycanın, dünyanın ən yaşlı ağaclarından biri sayılır. Ağacın hündürlüyü 54 metr, gövdəsinin diametri 27 metrdir. Ağacın yaxınlığında onu su ilə təmin edən Tenqri bulağı yerləşir.

Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı rayonunda olublar. Dövlətimizin başçısı və birinci xanım rayonun qədim Şuşakənd kəndinin ərazisinə baxış keçiriblər. Qeyd edək ki, Şuşakənd kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib. Qədim tarixə malik kənddə bəzi tədqiqatlara görə, eramızın əvvəllərində Şimali Qafqaz çöllərində yaşamış türkdilli tayfalar məskunlaşıb. Kəndin ərazisi turizm və kənd təsərrüfatı potensialına malikdir.

# "Ermənilər tərəfindən basdırılmış minalar hələ də böyük təhlükə törədir"

## Prezident İlham Əliyev Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb

**Dünən Prezident İlham Əliyev Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb. Cevdet Yılmaz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.**

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi. Azərbaycan Prezidenti hər fürsətdə və beynəlxalq təşkilatlar çərçivəsində keçirilən tədbirlərdə Türkiyə Prezidenti ilə görüşdüyünü və müzakirələri davam etdirdiyini vurğuladı.

Cevdet Yılmaz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı və Ulu Öndər Heydər Əliyevin əsl liderlik nümayiş etdirərək Azərbaycan dövlətinin qurucusu olduğunu qeyd etdi.





Türkiyənin vitse-prezidenti tarixi Qələbə və Azərbaycanın suverenliyinin tam bərpa olunması münasibətilə bir daha təbriklərini çatdırdı, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin Türkiyədə böyük sevinclə qarşılandığını vurğuladı. Bu xüsusda ermənilər tərəfindən basdırılmış minaların hələ də böyük təhlükə törətdiyi və yenidənqurma işlərinə mane olduğu bildirildi.

Vitse-prezident Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycanın göstərdiyi qardaşlıq dəstəyinə görə təşəkkürünü bildirdi, Kahramanmaraşda həyata keçirilən bərpa və tikinti işlərini xüsusilə qeyd etdi. Cevdet Yılmaz dünyanın yaşıl və rəqəmsal transformasiya dövründə olduğunu nəzərə alaraq, Azərbaycanla Türkiyənin bu sahədə də birgə çalışmasının və əməkdaşlığının vacibliyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsinin Preferensial Ticarət Sazişinin imzalanmasından sonra daha da artmasından məmnunluq ifadə olundu. Həmçinin gələn il Azərbaycan-Türkiyə hökumətlərarası komissiyanın iclasının keçirilməsi, eləcə də ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq, təşkilatın daha da gücləndirilməsi, digər qardaş türk ölkələri ilə işbirliyinin dərinləşdirilməsinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan -Türkiyə: əbədi qardaşlıq, iki dövlət, bir millət!

Bu dünyada analoqu olmayan və sərhəd tanımayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir. Bu gün hər iki dövlət yaxşı gündə də, pis gündə də bir-birinin yanındadır, hər iki dövlət eyni yolu yaşayır.

Son illər baş verən hadisələr bir daha təsdiqlədi ki, iki qardaş ölkə arasındakı qırılmaz əlaqələr daha möhkəm və sarsılmazdır. Bu gün hər iki xalqın nümayəndələri müdrik siyasi xadim Heydər Əliyevin bu sözlərinə sadiqlik nümayiş etdirdilər. Bütün dünyaya bir daha məlum oldu ki, bu tarixi ifadə sadəcə olaraq sözdən ibarət deyildir. Bu tarixi kəlam iki dost və qardaş ölkənin yolunu daha da işıqlandırıb, bütün sahələr üzrə, o cümlədən ordu sahəsində inkişafı yeni mərhələyə çatdırıb. Azərbaycan Prezidenti İlham Əliyev cənabları ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iki ay öncə mətbuata bəyanatlarında hərbi və müdafiə sənayesi sahəsində Azərbaycan-Türkiyə münasibətlərinin uğurla davam etdiyini, Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsinin təsadüfi olmadığını vurğulayaraq bildirib ki, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük".Dövlət başçısı onu da vurğulayıb ki, bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək.



RƏCƏB TAYYİB ƏRDOĞAN:
**"Can Azərbaycanla birlikdə göstərdiyimiz həmrəylik sayəsində 30 ildən sonra həm Qarabağ işğaldan azad edildi, həm də Cənubi Qafqaza daimi sülh və sabitlik üçün fürsət yarandı"**

İLHAM ƏLİYEV:
**"Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük"**



### 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ TÜRKİYƏNİN ORDU MODELİ ÖZÜNÜN UĞURUNU BİR DAHA SÜBUT ETDİ

44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu gün Azərbaycanın çox güclü ordusu var və hər bir vətəndaş ordumuzla qürur duyur. 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, səmərəli nəticələr əldə olunur. Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır. Və bu gün Azərbaycan və Türkiyə dövlətlərinin ordu rəhbərliyi arasında keçirilən yüksək səviyyəli görüşlər, iki ordunun hərbi qulluqçularının iştirakı ilə təşkil olunan təlimlər nəticəsində Azərbaycan Ordusunun gücləndirilməsi və müasir tələblər çərçivəsində qurulmasına yönəlik mühüm işlərə imza atılır. Bir sözlə, önəmli olan odur ki, tarixi köklərə söykənən və fundamenti qarşılıqlı etimad prinsipi üzərində qurulan əməkdaşlıq və tərəfdaşlıq bu gün ən yüksək dövrünü yaşayır.

Yüksək beynəlxalq tribunalardan öz sözünü deyən, milli mənafeyini qoruyan, böyük iqtisadi potensiala malik ölkəmiz İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoyaraq əldə etdiyi Qələbə ilə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Qürurverici haldır ki, bu gün Azərbaycan ilə Türkiyə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib. Ölkələrimiz milli maraqlara uyğun beynəlxalq əhəmiyyətli böyükhəcmli layihələrin reallaşmasına birgə səy göstərir. Hərbi sahədə də müttəfiq olan iki qardaş ölkə 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqaviləyə əsasən müstəqilliyin qorunması, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı istiqamətində bir-biri ilə sıx əməkdaşlıq edirlər. Müqavilənin ikinci maddəsində ölkələrdən hər hansı biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldığı halda, öz imkanları daxilində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri nəzərdə tutulur. Müqavilədə həmçinin, hər iki dövlətin səylərini birləşdirməsi, müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq perspektivləri öz əksini tapıb. Bu baxımdan, Cənubi Qafqaz regionunda söz sahibi olan Azərbaycan qardaş Türkiyə ilə birgə beynəlxalq sülhə, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir, sülhü təhdid edən çağırışlara qarşı səylərini birləşdirirlər. Bütün bunların fonunda bir-birinə qarşılıqlı yardım göstərmək, Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilir. Müntəzəm olaraq keçirilən birgə təlimlər isə hər iki ölkənin silahlı qüvvələri arasında təcrübə mübadiləsi, hərbi biliklərin mənimsənilməsi yönündə mühüm əhəmiyyət kəsb edir. Və bu təlimlərin böyük əksəriyyəti hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulan Türkiyə dövləti ilə birgə yerinə yetirilir.

### HƏRBİ TƏLİMLƏR TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİNİN, QARDAŞLIĞININ NÖVBƏTİ TƏZAHÜRÜDÜR

İki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də birgə hərbi təlimlərin keçirilməsidir. Bir sözlə, iki ölkənin münasibətləri unikal bir nümunəyə çevrilib. 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, daha bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Postmüharibə dövrünün reallıqları da bu gerçəkliyi bir daha təsdiqləyir. "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi" deyə Prezident İlham Əliyev çıxışında bildirib.

### "ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI İLƏ TÜRKİYƏ VƏ AZƏRBAYCAN RƏSMƏN MÜTTƏFİQ OLDULAR"

Müasir Azərbaycanın tarixində müstəsna yer tutan hadisələrdən biri də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanmasıdır. Bu hadisə iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi şanlı tariximizin ən qürurverici səhifələrindən biridir."Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular", - deyən Azərbaycan Prezidenti tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi olduğunu qeyd edib: "Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir".

Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu Bəyannamənin müddəaları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin bir çox aspektini əhatə etsə də, Hərbi Doktrinada nəzərdə tutulan xarici hərbi və siyasi təhdidlərin neytrallaşdırılmasında və ya onlara qarşı balans yaradılmasında xüsusi əhəmiyyət kəsb edir. Hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi isə təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Və bu gün müdafiə sənayesində önəmli rolu olan şəxslərdən biri də Səlcuq Bayraktardır ki, məhz onun təşəbbüsü ilə bu gün türk hərbi sənayesi dünyanın aparıcı hərbi qüvvəsi hesab olunur.

Bir sözlə, hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun professional inkişafında böyük rol oynayacaq. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Bizim qardaşlığımız əbədi və sarsılmazdır! Bütün dünya bilsin ki, Azərbaycan-Türkiyə əməkdaşlığı və qardaşlığı möhkəmdir, sarsılmazdır. Çünki Azərbaycan və Türkiyə təkcə iki dövlət, bir millət deyil - qardaş dövlət, qardaş ordudur!

**RƏFİQƏ KAMALQIZI**

# YAP Mərkəzi Seçki Qərargahının növbəti iclası keçirilib



***Dekabrın 20-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Seçki Qərargahının genişləndirilmiş iclası keçirilib. İclasda YAP yerli seçki qərargahlarının sədrləri də iştirak ediblər.***



2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, dekabrın 20-dək nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirildiyi qeyd edilərək qarşıda duran əsas hərəkət və tədbirlərin də müəyyən olunmuş müddətlərdə icrasına dair fikir mübadiləsi aparılıb, müvafiq tapşırıq və tövsiyələr verilib.



# "Media Savadlılığı" konfransı keçirilib

Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Media Savadlılığı" həftəsi çərçivəsində 500 gəncin iştirakı ilə "Media Savadlılığı" konfransı keçirilib. SİA xəbər verir ki, konfransın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov informasiya axınının sürətlə artdığı müasir dövrdə cəmiyyətdə informasiyanın etibarlılığını müəyyən etmək üçün düzgün bacarıqların inkişaf etdirilməsinin həm milli media məkanının inkişafı, həm də ölkə üzrə uzunmüddətli sosial-mədəni inkişafın təşviqi üçün başlıca amillərdən biri olduğunu vurğulayıb. O bildirib ki, müşahidə edilən informasiya bolluğu, cəmiyyətin məlumatın obyektiv tərəfini müəyyənləşdirməkdə çətinliklərlə qarşılaşması, media savadlı istehlakçıların yetişdirilməsinə zərurət yaratmaqla yanaşı, medianın öz peşəkar funksiyasını effektiv yerinə yetirməsi istiqamətində ardıcıl addımların atılmasını tələb edir.






Konfransda çıxış edən Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev dünya əhalisinin böyük bir hissəsinin media savadlılığı ilə bağlı fundamental bilik və bacarıqlara malik olmadığını, onlayn mühitdə təhlükəsiz şəkildə naviqasiya qabiliyyətinin məhdud olması səbəbindən belə əhali qruplarının, xüsusilə gənclərin mediada yer alan müxtəlif məlumatların mənfi təsirlərinə məruz qalma riskinin kifayət qədər yüksək olduğunu, bu istiqamətdə ardıcıl tədbirlər görülməsinin vacibliyini diqqətə çatdırıb..

Sonra Medianın İnkişafı Agentliyinin Media dəstək layihələri və strateji planlaşdırma şöbəsinin müdiri Ləman İsgəndərova "Media Savadlılığı" platformasının - "medialiteracy.media.gov.az"ın təqdimatını edib. Daha sonra Türkiyə Radio və Televiziya Ali Şurasının (RTÜK) İnsan Resursları və Təhsil İdarəsi Rəhbərliyinin müavini Feyza Gizligider "İzlədiklərinizin İzi Qalar" mövzusunda çıxış edib. Konfrans çərçivəsində "Rəqəmsal dövrdə gənclər və media savadlılığı" mövzusunda panel sessiyası keçirilib. Panel sessiyasına moderatorluq edən Medianın İnkişafı Agentliyinin eksperti Pərvanə İbrahimova bildirib ki, Agentliyin fəaliyyət istiqamətində həm də Media Savadlılığının təhsildə tətbiqi məsələləri öz əksini tapmışdır. O, sosial media istifadəçisi olan gəncin saxta xəbərlərin təsirinə düşməməli və istənilən kontentə tənqidi yanaşma sərgiləməli olduğunun, faktı və vizual materialları yoxlayan proqramlardan da məlumatlı olmasının önəmindən danışıb.

Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Ramil Cabbarov öz çıxışında dezinformasiyanın sürətlə yayılmasının birbaşa gənclər üçün təhlükə mənbəyi hesab edilə biləcəyini qeyd edib, bu halın onların inkişafına, maariflənməsinə, təhlükəsizliyinə təsiri və onun aradan qaldırılması istiqamətində görülən işlər barədə məlumat verib. Daha sonra Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqədər və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev çıxışındarəqəmsal dövrdə media savadlılığının tədrisdə tətbiqinin aktuallığından, nazirliyin media savadlılığı istiqamətində gördüyü işlər, onun ayrıca fənn olaraq orta məktəb proqramına salınması və ümumiyyətlə, bu sahədə perspektiv layihələr haqqında danışıb. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin bölmə rəisi Murad Babayev isə kiberhücum, kibertəhlükəsizlik terminləri, ümumiyyətlə gənclərin sosial media alətlərindən istifadəsi məsələlərini konfrans iştirakçılarının diqqətinə çatdırıb. Konfransın sonunda "Media Savadlılığı" mövzusunda keçirilən onlayn sorğuda qalib olanlar mükafatlandırılıb.

# ABŞ mətbuatı Qərbi Azərbaycana qayıdışdan yazır

ABŞ-ın Xarici Siyasət Assosiasiyasının xəbər saytında "Köçkün xalqların acınacaqlı vəziyyəti" sərlövhəli məqalə dərc olunub. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi, baş direktoru Reyçel Avrahamın müəllifi olduğu məqalədə qeyd edilib ki, qlobal köçkünlük böhranı qorxuducu həddə çatıb, milyonlarla insan silahlı münaqişə, təqiblər və sistemli şəkildə həyata keçirilən siyasət səbəbindən evlərini tərk etmək məcburiyyətində qalıb. Belə ki, cari ilin dekabrın 5-də Qərbi Azərbaycan İcması tərəfindən "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geriqayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda təşkil edilən beynəlxalq konfransın konseptual sənədinə görə, sürgün edilmiş insanların öz evlərinə könüllü, təhlükəsiz və ləyaqətlə qayıtması uzunmüddətli həll yolu kimi prioritetləşdirilməlidir.

Məqalədə, həmçinin diqqətə çatdırılıb ki, azərbaycanlılar 1905-1906, 1918-1920 və 1948-1953-cü illərdə indiki Ermənistan ərazisindən məqsədli şəkildə qovulublar. Təkcə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi şəkildə deportasiya edilib. Onların bəziləri, xüsusilə qocalar və körpələr ağır məskunlaşma şəraitindən, əlverişsiz iqlimdən, fiziki məhrumiyyətlərdən və ruhi iztirablardan dünyasını dəyişib. Habelə SSRİ-nin dağılması ilə Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulub. Onlardan 216-sı amansızlıqla öldürülüb, 1154-ü yaralanıb.

Konfransın konsepsiya sənədinə istinadən qeyd olunub ki, azərbaycanlıların vaxtilə mütləq çoxluq təşkil etdikləri Ermənistandan zorla qovulması hadisəsi böyük və görünməmiş ədalətsizlikdir. Ermənistandan qovulmuş azərbaycanlıların acınacaqlı vəziyyəti zorakılıq və insan hüquqlarının kobud şəkildə pozulması ilə səciyyələnən sistemli dövlət səyləri ilə davam etdirilən etnik təmizləmənin dəhşətli nəticələrinə nümunədir. Bu faciəli hadisələr mərhələli şəkildə, xüsusilə 1948-1953 və 1987-1991-ci illərdə baş verib və bu qanunsuz hərəkətlərin nəticələri hələ də həllini tapmayıb.



Foreign Policy Association

RSS Subscribe | Follow us on Twitter | Join us on Facebook

DEFENSE & SECURITY | THE EU | NUCLEAR | MEDIA AND FOREIGN POLICY | TRADE | U.S. FOREIGN POLICY | REGIONS | MORE TOPICS

The Plight of Displaced Nations

by Rachel Avraham | on December 12th, 2023 | 0 Comments

The global displacement crisis has reached alarming proportions, with millions of people forced to leave their homes due to armed conflicts, persecution and systematic policies. According to the concept paper written for an international conference sponsored by the West Azerbaijan community, "It is imperative to prioritize the voluntary, safe and dignified return of expelled people to their homes as a long-term solution."

The Azerbaijanis were deliberately expelled and deported from the territory of present-day Armenia in 1905-1906, 1918-1920 and 1948-1953. In 1948-1953 alone, more than 150,000 Azerbaijanis were deported en masse from their historical lands in the territory of the Armenian SSR. Some of them, especially the elderly and infants, died due to severe resettlement conditions, unfavorable climate, physical deprivation and mental suffering. In the face of the disintegration of the USSR, more than 250,000 Azerbaijanis living in Armenia were forcibly expelled from their historical lands. 216 of them were mercilessly slaughtered and 1,154 were injured.

In a recent conference titled "Enabling the safe and dignified return of Azerbaijanis expelled from Armenia: Global context and just solution," Dr. Nazim Mustafa of the Azerbaijan National Academy of Sciences noted: "In the 1800s, only a few Armenians existed there," noting that it was the decision of the colonial powers to transform Yerevan Province into a homeland for the Armenian people by importing Armenians into the region and kicking out Azerbaijanis.

Professor Yildiz Deveci Bozkus from Ankara University underscored that Yerevan province was originally a majority Azerbaijani area and that foreign experts in the past even noted that there were scarcely any Armenians in the area. Yet, she noted that thanks to the work of colonial powers who supported the ethnic cleansing of Azerbaijanis from the region, it is now an exclusively Armenian place: "The Soviet policy led to the displacement of thousands of Azerbaijanis, with their historical and cultural heritage being destroyed in Armenia. This changed the demography of the region."

According to the concept paper, "The case of forced expulsion of Azerbaijanis from Armenia, where they once constituted an absolute majority, represents an immense and

Author — Rachel Avraham

Rachel Avraham is the CEO of the Dona Gracia Center for Diplomacy and the editor of the Economic Peace Center, which was established by Ayoob Kara, who served as Israel's Communication, Cyber and Satellite Minister. For close to a decade, she has been an Israel based journalist, specializing in radical Islam, abuses of human rights and minority rights, counter-terrorism, the Israeli-Palestinian conflict, Azerbaijan, Syria, Iran, and other issues of importance. Avraham is the author of "Women and Jihad: Debating Palestinian Female Suicide Bombings in the American, Israeli and Arab Media," a ground-breaking book endorsed by Former Israel Consul General Yitzchak Ben Gad and Israeli Communications Minister Ayoob Kara that discusses how the media exploits the life stories of Palestinian female terrorists in order to justify wanton acts of violence. Avraham has an MA in Middle Eastern Studies from Ben Gurion University. She received her BA in Government and Politics with minors in Jewish Studies and Middle Eastern Studies from the University of Maryland at College Park.

Read all of Rachel Avraham's Posts

Popular Posts

Popular Tags

Afghanistan Africa Arab Spring Barack Obama Beijing Brazil Canada China corruption Democracy Egypt Foreign Policy human rights India Iran Iraq Israel Middle East NATO

Konfransda təqdim olunan "Qayıdış Konsepsiyası"nda deyilir ki, azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə, zorakılıq, soyqırımı və insanlığa qarşı digər cinayətlər əksər hallarda dövlət orqanları tərəfindən xüsusi qəddarlıqla həyata keçirilib. 1921-ci ildə Zəngəzuru və azərbaycanlıların çoxluq təşkil etdiyi digər əraziləri Ermənistana verən və yüz minlərlə etnik azərbaycanlının Ermənistandan deportasiyası haqqında irqçi sərəncam imzalayan Sovet İttifaqı, xüsusilə onun bədnam lideri İosif Stalin cəzasız qalıb. Eyni şəkildə 1987-1991-ci illərdə Ermənistan Sovet Sosialist Respublikasının öz azərbaycanlı əhalisinə qarşı törətdiyi əməllər hələ də üstü açılmamış qalır. Ermənistanda Azərbaycanın tarixi-mədəni irsi, o cümlədən məscid və qəbiristanlıqlar, toponimlər dəyişdirilib, azərbaycanlılara qarşı sistemli şəkildə irqi ayrı-seçkilik həyata keçirilib. Bu azmış kimi, azərbaycanlılara qarşı etnik təmizləmə və digər cinayətlərdə iştirak edənlər və onların vəhşilikləri Ermənistanda dövlət səviyyəsində tərənnüm edilir.

# Qarabağ klanının sülhə mane olan MANİPULYASİYA ALƏTİ

**Artıq ermənilərin qətiyyən döyüşmək, müharibə etmək fikri, niyyəti yoxdur və ola da bilməz, çünki döyüşlərin nəticələrinin onlar üçün nə dərəcədə acınacaqlı olduğunun əyani şahidləridirlər. Doğrudur, Azərbaycana məxsus olan Qarabağ ərazilərindən əllərinin üzülməsi, eləcə də həmin torpaqlarla bağlı ümidlərinin puç olması, verdikləri itkilər bütövlükdə erməni cəmiyyəti üçün hələ də unudulacaq görünmür, amma buna baxmayaraq, artıq görünən odur ki, onlar müharibələrdən, döyüşlərdən beziblər və əmin-amanlıq arzusundadırlar. Qarabağ klanı isə, ermənilərin arzularını, istəklərini nəzərə almadan, daim sülh təşəbbüsünə qarşı çıxır və görünür, müharibə, münaqişə niyyətindədir, hansı ki, bu, onların fəaliyyətində öz əksini tapır.**



Hər dəfə sosioloji sorğular keçirərək və sorğuların həqiqətdən uzaq olan nəticələrini əsas gətirərək erməni cəmiyyətinin fikrinin "nədən" ibarət olduğunu göstərmək istəyənlər əslində, manipulyasiya edirlər və buna istinad etməyə çalışırlar. Yalan məlumatlarla, özlərinə lazım olan doğru olmayan statistik göstəricilərlə Ermənistan müxaifəti hazırda hakimiyyətə təsir göstərməyə çalışır. Hər şeydən əlləri üzülən Ermənistan müxalifəti, yəni keçmiş cinayətkar rejim, Qarabağ klanı sorğuların nəticələrini əllərində bayraq edərək, hansısa təsir mexanizminə sahib olduqlarını düşünür, amma bərk yanılır. Əvvəla ona görə ki, məsələn, sonuncu dəfə sorğu aparılan 8100 nəfər heç də erməni cəmiyyətinin, Ermənistan ictimaiyyətinin hamısı demək deyil və sorğuda iştirak edənlərin fikirlərinə görə gəlinən qənaət heç də erməni cəmiyyətinin niyyətini əks etdirmir və etdirə də bilməz. Digər tərəfdən də, ümumiyyətlə, təsadüfi sorğu yolu ilə insanların fikirlərinin nədən ibarət olması qənaətinə gəlmək yanlışlıqdır. Belə bir yanlışlıqla mövcud hakimiyyəti, bütövlükdə Ermənistan ictimaiyyətini çaşdırmaq və sülh təşəbbüsünə mane olmaq, qarşı çıxmaq, ölkəni münaqişə və müharibələrə sövq etmək niyyəti artıq göz önündədir, hansıki bunun da fərqində olan ermənilər az deyil.

Sözsüz ki, sorğuların kimin "təşəbbüsü" ilə keçirilməsi, "sifarişçinin" kim olması əsas şərtlərdən biridir. Əvvəla ona görə ki, həmin "sifarişçilər" sorğunun hansı hədəf auditoriyasına ünvanlayacaqlarını öncədən planlaşdırırlar və hər halda döyüş barədə, ermənilərin məğlubiyyət acısının nə olduğu haqda, müharibə mövzusunda təsəvvürləri belə olmayan insanların cavabını qeydə alırlar. Onlar heç zaman gedib müharibədə iştirak edən, qorxudan döyüş meydanını, silah-sursatını qoyub qaçan ermənilərdən qətiyyən sorğu götürməzlər. Həmçinin sorğu aparanlar bir dəfə də olsa müharibədə öz yaxınlarını itirən ermənilər arasında sorğu aparmayıblar. Ən azı bircə övladını, yaxınını itirən ailələrə belə sorğu ilə müraciət etməyiblər. İstər birinci, istərsə də ikinci Qarabağ müharibəsində döyüşən, yaxud da, ən azından döyüşlər barədə məlumatlı insanlardan da sorğu götürülməyib. Deməli, buna sorğu yox, sadəcə olaraq, manipulyasiya aləti demək daha doğru olar.

Səsləri, nəticələr barədə göstəriciləri "kimin" və "necə" saydığı da daha bir maraqlı məqam hesab olunur və ümid edirik ki, erməni cəmiyyəti üçün də diqqətdən yayınan deyil. Hər halda, ermənilər başa düşürlər ki, bu vaxta qədər başqasının torpaqlarını öz ərazisi kimi göstərəcək qədər həyasızlıqla çıxış edənlər, saxtakarlıq edənlər, bu yalanlarının "ayaq tutub yeriməsi" üçün mənsub olduqları erməni xalqının qanına belə susayanlar, minlərlə erməni ailəsini övlad itgisi səbəbindən göz qırpmadan, gözü yaşlı qoyanlar üçün respondentlərin fikirlərini saxtalaşdırmaq, çox adı bir işdir. Ümid edirik ki, respondentlərin fikirlərini sonda təhlil edənlərin özlərinə lazım olan fikirləri daha yüksək faiz göstəricisi ilə təqdim edə bilmələrinə bir maneə olmadığını erməni cəmiyyəti başa düşür. Yəni, çox güman ki, onların "hansı şəkildə", "kimlərin iştirakı ilə", eləcə də "necə" sayım etdiləri erməni cəmiyyətində yaxşı başa düşülür. Başa düşülür ki, istənilən bir nəticə ilə bağlı faizi müəyyən etmək üçün onların qarşısında bir çətinlik yoxdur və hansı faizi istəsələr onu da müəyyən edirlər. Deməl, qətiyyən həmin sorğular həqiqəti əks etdirə bilməz və buna istinad edilməsi də sadəcə, manipulyasiyadır.

Cinayətkar rejimin təşəbbüsü, sifarişi ilə keçirilən sorğunun nəticələrinə görə, guya respondentlərin, yəni, sorğu götürülən 8100 nəfərin yalnız 4 faizi sülhün mümkün olduğuna inanır və sülh istəyir. Bu rəqəmləri "ortaya çıxaranlar" bununla demək istəyirlər ki, guya erməni cəmiyyətində Nikol Paşinyana cəmi 4% dəstək var və onun qərarları legitim sayıla bilməz. Diqqət ediləcək məqam ondan ibarətdir ki, müxalifət düşərgəsinin, Qarabağ klanının əlində oyuncaq olan bir kanalın apardığı sorğu manipulyasiya aləti kimi istifadə edilir və bu zaman da sülh gündəliyinə mane olmaq, münaqişəni, müharibəni qızışdırmaq niyyəti güdülür. Hər halda, eyni sorğunu Ermənistan hakimiyyətinə sadiq bir kanal aparacağı təqdirdə, təbii ki, tamam fərqli nəticələr əldə ediləcəyinə erməni cəmiyyətində zərrə qədər də şübhə ola bilməz. Müharibənin nə olduğunu, hansı bəlalar və bədbəxtliklər gətirdiyini anlamayan radikal gənclər arasında, özü də internet vasitəsi ilə aparılan sorğunun nəticələrinin "necə" olacağı elə əvvəlcədən də bəlli idi. Yəqin ki, hərbi yaşda övladı olan orta və yaşlı insanlar, yaxud oğullarından biri Qarabağda hansısa müharibədə həlak olan valideynlər arasında sorğu keçiriləcəyi təqdirdə, sülh tərəfdarlarının sayının hansı həddə olacağı, faiz göstəricilərinin indiki sorğunun göstəricilərindən tamamilə fərqli, onların əksinə olacağı hər kəsə, ələlxüsus da ermənistan cəmiyyətinə çoxdan bəllidir.

Bəli, həqiqətən də insanların öz yaxınlarını, öz əzizlərini, öz həmvətənlərini müharibədə itirmək istəmədiyi tamamilə başadüşüləndir. Üstəlik, erməni xalqının özünə məxsus olmayan, başqasına, qonşu ölkəyə məxsus olan torpqlar uğrunda itgi vermək, yaxınlarını, əzizlərini itirmək istəməməsi daha məntiqlidir. Bu baxımdan tam əminliklə deyə bilərik ki, erməni cəmiyyəti artıq müharibə tərəfdarı ola bilməz. Yəni, erməni cəmiyyətinin sülh tərəfdarı olmasının təkzib etmək, buna qarşı çıxmaq avantürizmdən başqa bir şey deyil, hansıki bundan hakimiyyət iddiasında olanlar istifadə etməkdədirlər. Əslində, internetdə deyil, real həyatda insanların fikirlərini soruşsalar, o zaman erməni cəmiyyətində böyük əksəriyyətin sülh gündəliyinə, sülhə tərəfdar olduqlarını bildirərlər. Hətta Ermənistana məxsus mətbuat səhifələrində də qeyd olunur ki, bir çox ermənilər öz yaxın ətrafında olan insanların sülh tərəfdarı olduqlarını bildirdiklərini deyirlər və erməni cəmiyyətinin böyük hissəsinin sülh istəyində olduğunu etiraf edirlər.

Hazırda cinayətkar rejimin, Qarabağ klanının niyyəti tam şəkildə bəllidir və sülh təşəbbüslərinə, Paşinyanın özünə belə zərbə vurmaq üçün qarşıya məqsəd qoyulduğu aydın şəkildə görünür. Aydın şəkildə görünür ki, sülh gündəminin azlıq tərəfindən dəstəkləndiyini iddia etməklə, qısa şəkildə desək, manipulyasiya edirlər. İndi Ermənistanda yaşayanların böyük əksəriyyəti, Qarabağ klanına yaxın olanlardan başqa hər kəs bilir ki, nə Nikol Paşinyanın, nə də ümumilikdə erməni cəmiyyətinin, Ermənistan ictimaiyyətinin sülh tərəfdarı olmaqdan başqa yolu, doğru yolu yoxdur. Öz övladlarının, öz yaxınlarının, öz əzizlərinin itgisi ilə bağlı acı çəkən ermənilər birmənalı şəkildə sülh tərəfdarıdırlar və bundan sonra ermənilərin öz övladlarını qonşu ölkəyə məxsus olan torpaqlar uğrunda döyüşə göndərmək niyyətində olmamaları tamamilə məntiqidir. Həm də axı indiyə qədər Ermənistanda müşahidə olunan mitinqlərdə, etiraz aksiyalarında insanların bu barədə fikirləri, övladlarını bir daha müharibəyə göndərməyəcəkləri barədə dedikləri də təsdiq edir ki, onlar müharibə niyyətində deyillər. Müharibə niyyətində olan məhz cinayətkar rejim və Qarabağ klanıdır, çünki onlar müharibədə itgi verənlər deyillər, əksinə, müharibə kartından istifadə edənlərdirlər. Onlar müharibə kartından istifadə edib hakimiyyətə gələnlərdirlər, külli miqdarda vəsait, pul, var-dövlət toplayanlardırlar və indi həmin vəsaitlər hesabına ictimai fikir barədə istədikləri "faiz" ortaya qoyaraq, cəmiyyəti çaşdırmaq, sülh təşəbbüsünə mane olmaq, müharibəni qızışdırmaq, yenidən münaqişə yaratmaq niyyəti güdürlər.

Sülh əleyhinə olanlar, koçaryanlar, sarkisyanlar, onlara dəstək olan xaricdə məskunlaşan erməni diasporu yenə də heç nə itirməyəcəklərinə əmindirlər deyə, aranı qızışdırmaqdan, müharibəyə, münaqişəyə rəvac verməkdən çəkinmirlər. Bu vaxta qədər nə Serj Sarkisyanın, nə Robert Koçaryanın yaxın ətrafından bircə dənə də olsa erməni döyüşdə həlak olmayıb. Heç döyüş iştirakçısı kimi də diqqəti cəlb etməyib. Robert Koçaryanın indi ortalığa atılan oğlu Levon Koçaryan döyüş zamanı, Qarabağda qanlı döyüşlər getdiyi zaman səsini belə çıxarmırdı. Ermənistanın ikinci prezidentinin oğlu uzaq başı küçə və meydanlarda etiraz aksiyalarında iştirak edib. İndi sülh təşəbbüsünə qarşı olan, müharibəyə, münaqişəyə rəvac vermək üçün əlindən gələni edən həmin o eks prezident Robert bilir ki, yenə də müharibə olsa onun oğlu müharibədə iştirak etməyəcək. Bir sözlə, müharibə olacağı təqdirdə bundan hansısa formada zərər görəcəyini ağlına belə gətirməyənlər hər vəchlə sülhə mane olmağa, Paşinyanı devirib Ermənistanda hakimiyyəti ələ keçirməyə çalışırlar və bunu erməni xalqı da çox yaxşı başa düşür. Başa düşür ki, müharibə olacağı təqdirdə cəmiyyəti müharibəyə sövq edənlər, onların yaxınları, əzizləri, övladları yox, həmişə olduğu kimi, yenə də məhz döyüşdə sıravi ermənilər itgilər verməli olacaqlar. Ermənistan ictimaiyyəti bilir ki, Qarabağ klanına dəstək verən diaspor nümayəndələri də müharibədə iştirak etməyəcəklər və minlərlə kilometr aralıda təhlükəsiz olduqları üçün sülh proqramına qarşı çıxırlar.

Əlbəttə ki, aranı qarışdırmaq, hətta münaqişəni qızışdırmaq istəyənlərin kimlər olduğu erməni cəmiyyətinə tam şəkildə bəllidir. Bəllidir ki, elə ara qarışdırmaq üçün atılan addımlara da "sponsorluq" edənlər elə məhz həmin cinayətkar rejimdir, Qarabağ klanıdır, koçaryanlar və sarkisyanlardır. Yaxşı bilirlər ki, onlar onillər boyu erməni xalqının qanını içənlərdir və yenə də eyni niyyətlə ortaya atılıblar. Dərk edirlər ki, onların manipulyasiyasına və təbliğatına uyacaqları təqdirdə bundan sonra da qanlarını içməyə davam edərlər. İndi erməni cəmiyyəti anlamağa başlayıb ki, yeni müharibə olsa belə, Moskvada, Krasnodarda, Parisdə, Londonda və Los-Ancelesdə məskunlaşan həmin o ölkədən qaçan cinsi yetkin şəxslər yox, döyüşən və ölən yenə də sıravi erməni vətəndaşlar olacaqlar. Robert Koçaryanın oğlu Levon Koçaryanın, yaxud da, Serj Sarkisyanın qızı Anuş Sarkisyanın həyat yoldaşı Mikael Minasyanın bundan sonra da olsa müharibədə iştirak edəcəyinə bircə dənə də inanan erməni tapılmaz. Əgər Qarabağ klanı erməni xalqına sülh deyil, müharibənin daha vacib olduğunu demək istəyirdisə, erməni cəmiyyətini də buna inandırmaq istəyirdisə, qondarma sorğu keçirmək yox, ilk növbədə, özləri və özlərinə yaxın adamlarla birbaşa iki ölkə arasındakı sərhəddə yollanmaq qərarına gələrdilər. Amma Ermənistan ictimaiyyəti bunu müşahidə etmədi və müşahidə edilən məhz Qarabağ klanının sosioloji sorğu, yəni manipulyasiya aləti ilə erməni cəmiyyətini müharibəyə, münaqişəyə sövq etmək niyyəti oldu...

***İnam Hacıyev***

# Sakinlər Yeni İlə necə hazırlıq görür?





**Artıq 2024-cü ilə sayılı günlər qalıb. Bayram hazırlığına yeni il alış-verişi də daxildir. İnsanlar yeni il üçün hansı hazırlıqları görüblər, yeni il hədiyyələrinin qiymətlərindən razıdırlar? Uşaqlara hədiyyə seçərkən nələrə diqqət etməlidirlər? SİA bu kimi suallara cavab tapmaq üçün paytaxt sakinləri arasında sorğu keçirib.**

**Şəhər sakini Məlahət Bayramova:** "Hələ yeni il hədiyyəsi almamışam. Amma eşitdiyimə görə, çox bahadır və keyfiyyətsizdir. Yeni il hədiyyələrini uşaqlarımız üçün alırıq, gərək keyfiyyətli olsun, çünki onları zəhərləyə bilərik. Deyilənə görə, keyfiyyətsiz hazırlayırlar. Dükanlara daxil olanda görürük ki, keyfiyyətsizdir. Vaxtı ötmüş məhsulları yığırlar qutuya, qapalı olduğu üçün baxa bilmirik. Alırıq, sonra görürük ki, köhnədir. Kimsə birinə hədiyyə verəndə bilmədən alıb aparır, köhnə çıxanda utanır. Təkcə yeni il hədiyyələrindən söhbət getmir. Qapalı olan bir çox şeylərin içərisində köhnə məhsulla rastlaşa bilirik. Özümüz də bu şeylərə diqqət etməliyik. Kollektiv şəkildə buna qarşı mübarizə aparmalıyıq. Tələb etməliyik ki, açsınlar tarixinə baxaq. Bütün hallarda insanda da insaf olmalıdır ki, hədiyyələr körpə uşaqlar üçün alınır. İndidən onları zəhərləməyək".

**Şəhər sakini Aysel Zahidova:** "Bizim evdə kiçik uşaq yoxdur, ona görə qiymətlərə çox da fikir verməmişəm. Yeni il hədiyyəsi də qəbul edərkən, onun ucuz, bahalı olmasının əhəmiyyəti yoxdur. Yeni il alış-verişi etmişəm. "Trendyol"dan sevgilimə köynək almışam. Bir yerdə seçdik, bəyəndi. Uşaq da olsa, böyük də olsa fikrini soruşub almağa üstünlük verirəm. Qarşı tərəfə alınacağı üçün onun fikri önəmlidir".

**Şəhər sakini Orxan İbrahimov:** "Yeni il qiymətlərindən razıyam. Amma yeni ili Azərbaycanda olmayacam. Evdəkilər üçün yeni il hədiyyəsi hələ almamışam, alacam. Hədiyyə seçərkən dəyərli əşyalara önəm verirəm. Mənə hədiyyə verilərkən isə qiymətinin fərqi olmur".

**Şəhər sakini Gülşən Ağamova:** "Qiymətlərdən razı deyiləm, bahadır. Uşaqlara hədiyyə seçərkən daha çox keyfiyyətə fikir verirəm. Ucuz və baha fərq etmir, əsas keyfiyyəti yaxşı olsun. Vaxtı keçmiş məhsullara da rast gəlirəm, diqqət edirəm. Mənə hədiyyə verilərkən bahalı, ucuz olmasının önəmi yoxdur, önəmli olan xatırlanmaqdır. Birinə hədiyyə alarkən, böyük olmasına fikir verirəm".

**Şəhər sakini Fatma Əhmədova:** "Qiymətlər hamının büdcəsinə görədir. Həm ucuz, həm də bahalıdır. Amma mən keyfiyyətə fikir verirəm. Uşaqlara da hədiyyə alarkən bitmə vaxtına diqqət edirəm. Yeni il alış-verişi etmişik. Hədiyyə seçərkən gözəlliyinə, qutusunun yaraşığına fikir verirəm".

**Şəhər sakini Kamil Haqverdiyev:** "Yeni il hədiyyələrinin qiymətlərindən razı deyiləm, bahadır. Uşaqlara hədiyyə seçərkən də keyfiyyətə fikir verirəm. Hələ vaxt var, bayram alış-verişi etməmişəm. Dekabrın 25-26-sı edəcəm. Uşaqlar şirniyyat, böyüklər paltar, telefon istəyirlər".

**Şəhər sakini Dilbər Padarova:** "Mən qiymətlərdən razı deyiləm, bahadır. İşləyirəm, 300 manat maaş alıram. Maaşım artmır, hər şey də bahadır. Yeni il alış-verişi etmək üçün pul lazımdır. Pul olmadığı üçün də heç nə almamışıq. Nəsə almalı olsam, nəvəm üçün saat alaram. Çünki qol saatı istəyirdi. Hələ onu ala bilməmişəm. Uşaqlar üçün hədiyyə alarkən onların istədiyi şeyləri almaq lazımdır. Oyuncaqlar, geyimlər, şirniyyatlar belə hədiyyələrə aiddir".

***Söylü Ağazadə***

# Sapı bulanan qılınc



**Vəli Vəliyev**

***Son 30 ildə Avropanın nəmənə olduğunu bizə qarşı olan münasibətində tam şəffaflıqla gördük. Sovet hakimiyyəti illərində xarici siyasətimiz o qədər də aktiv olmadığı üçün xaricilərin, beynəlxalq təşkilatların hansı hoqqadan çıxdıqlarından bixəbər idik. Müstəqillik həm də bizə kimin kim olduğunu, dünyada nə qədər iyrənc üsulların, yanaşmaların, münasibətlərin mümkünlüyünü bir daha aydınlatdı. Nəzəriyyəni bir kənara tullayıb keçək əsas mətləbə.***

Azərbaycan 30 il bundan əvvəl Avropanın bu gün, yəni 44 günlük müharibədən sonra uzun qulağını sallayıb maddım-maddım tamaşa etdiyi və beynəlxalq hüquqa görə heç bir irad bildirə bilmədiyi sərhədləri vardı. Sovet ittifaqını təşkil edən, formalaşdıran və dünyanın da tanıdığı 15 respublika var idi. İstər onlara qardaş, yaxud düşmən deyilsin, fərq etməz və hər birisinin də ABŞ-da, Belçikada, Böyük Britaniyada, elə Avropa İttifaqında dövlətlərin müəyyən sərhədlər daxilində inzibati ərazisi olduğu kimi Azərbaycanın, Gürcüstanın, Moldova və Özbəkistanın, Ermənistanın da sərhədləri mövcud idi. Sovet hökuməti dağılanda qardaş respublikalar da öz sərhədlərinə çəkildilər, təkcə Ermənistandan savayı. Erməni dövlətini idarə edənlər fürsətdən yararlanmaq, Azərbaycandan pay qoparmaq, həmin tikəni həzm-rabedən keçirmək istəyi hər iki dövlətə ziyanla başa gəldi. Amma Avropanın məsələyə yanaşma tərzi isə "qoca qitə"nin nə qədər aşındığını göstərdi. Problemə adekvat reaksiya vermək qabiliyyəti olmayan Avropa həm də Ermənistanın 30 il ərzində törətdiyi qanunsuzluqları, cinayətləri görməzdən gəlməklə öz imicini ayaqlar altına atdı. Sadalasaq yaxşı olar.

Azərbaycanlılar Ermənistandan zorla çıxarıldı, Avropa susdu, sərhədlərimiz pozuldu, ərazi bütövlüyümüz, suverenliyimiz təhlükə altına düşdü, Azərbaycanın 20 faiz torpaqları işğal edildi, yerli sakinlər, yeni azərbaycanlılar öz yurdundan zorla qovuldu, vətəndaş öz ölkəsində məcburi köçkün vəziyyətinə düşdü, şəhər, kənd və qəsəbələrimiz vandalizmə məruz qaldı, dağıdıldı, viran qoyuldu, dini, milli, tarixi abidələrimiz məhv edildi, insanlarımız öldürüldü, əsir və girov götürüldü, izsiz-soraqsız yoxa çıxarıldı Qərbdən səs çıxmadı. Bir sözlə, Ermənistan adlı qondarma dövlət xalqımıza qarşı bəşəriyyətə məlum olan bütün cinayətləri törətdi, ona "gözün üstə qaşın var" deyən olmadı, əksinə 25-30 il ərzində həmin Qərb, həmin Avropa, həmin xristian dünyası bu cinayətləri malaladı, ört-basdır etməyə çalışdı. Diqqət edin, yəqin ki, Avropanın İnsan Haqları Məhkəməsinin guya araşdırdığı, guya ədalətli qərar verdiyi "Çıraqovlar Ermənistana qarşı" məhkəmə işindən xəbəriniz var. Laçın şəhərindən didərgin salınan Çıraqovlar ailəsi öz mülkiyyət hüquqlarını bərpa etmək və təzminat əldə etmək üçün düz 10 il (!!??) adıçəkilən məhkəmənin qərarını gözləməli oldu. Anlamaq olmur, Avropa Məhkəməsi bu illər ərzində nəyi araşdırırdı, cinayətkar beləmi uzaqda idi?

Mətləbə bir az da yaxınlaşaq. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) "Narayan və başqaları Azərbaycana qarşı" işi üzrə hökm çıxarıb. Qərara əsasən, hərbçilər Edqar Narayan və Erik Abovyanın ölümü, habelə onların ölüm şəraiti ilə bağlı hər hansı araşdırma aparılmaması ilə bağlı Konvensiyanın 2-ci maddəsi (yaşamaq hüququ) pozulub. Və bir neçə maddə ilə də Azərbaycan tərəfi günahkar elan edilib. Söhbət 3 il bundan əvvəl Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdən gedir. Azərbaycan ordusunun əsgəri Çingiz Qurbanov hücum edən erməni diversiya qrupunun 3 hərbçisini qeyri-bərabər döyüşdə məhv edib və sonda özü də həlak olub. Qeyd edək ki, şəhidimiz ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Milli Qəhrəman" adına layiq görülüb.

AİHM-in qərarı da elə ermənilərin mahiyyətindən uzağa getməyib, yəni para qoparmaq. Həm də çox absurd ittihamla, əcaib məhkəmə vasitəsilə. Yenə diqqət edin, Çıraqovların mülkiyyəti əlindən alınıb, bütün hüquqları, ən adi yaşamaq haqqı tapdalanıb, Avropa isə dilini udub, araşdırıb və on ildən sonra məcbur qalaraq gərəksiz qərar verib. İndiki qərar isə sırf döyüş şəraitində baş verən uydurmalar əsasında verilib. Guya, bizim əsgər sərhəd xəttini keçərək Ermənistanın içərilərində günahsız insanları öldürüb. Ona qalsa, Ermənistan törətdiyi hərbi cinayətlərə görə Azərbaycana bir ömür təzminat ödəməlidir. Amma bu baş vermir. Çünki Ermənistanın göndərdiyi dana Avropa Məhkəməsinin simvolu olan "Femida"nın əlindəki qılıncın sapını çoxdan bulayıb. Avropanın ədaləti dananın səxavəti qədərmiş. Bu, bir daha sübut olundu...

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər





"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il dekabrın 20-də YAP Səbail rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda xatirə fotosu çəkdirilib.

## "Nar" Şərurda yeni mağazasını təqdim etdi



"Nar" Naxçıvan Muxtar Respublikasının Şərur şəhərində satış və xidmət mağazasını açdı. Şəhərin Kapitan Seyidov 4A küçəsində yerləşən mağazada nömrələrin satışı, bərpası və digər xidmətlərə yanaşı, mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir. "Nar" abunəçiləri mobil opratorun müştəriyönümlülük strategiyasına uyğun olaraq bu yüksəkkeyfiyyətli xidmətlərdən ən sərfəli qiymətə yararlana bilərlər.

Mobil operator davamlı olaraq müştəriləri üçün özəl tariflər və yeni konsepsiyalı mağazalar təqdim edir. 2023 il ərzində 13 yeni "Nar" mağazası fəaliyyətə başlayıb. "Nar" mağazalarının geniş siyahısı və təklif olunan xidmətlər haqqında ətraflı məlumatı nar.az ünvanından əldə edə bilərsiniz. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Azərbaycanın mədəni irs nümunələri İslam Dünyası İrsi Siyahısında




**Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının müxtəlif qurumları - İSESKO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə sıx əməkdaşlıq edir. Bu baxımdan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Həmin fəaliyyətin nəticəsi olaraq, 23 noyabr 2006-cı ildə İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycri sivilizasiyalararası dialoq daxil olmaqla müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, İslam aləmində görülən işlərə böyük dəstəyinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İSESKO-nun xoşməramlı səfiri adının verilməsi haqqında diplom təqdim etmişdir.**

Həmçinin, 2008-ci ilin 10-11 iyun tarixlərində, "Mədəniyyətlərarası Dialoqda Qadınların rolunun genişləndirilməsi" mövzusunda Bakıda keçirilmiş beynəlxalq forumda iştirak edən İKT Baş katibi E.İhsanoğlu humanitar sahədəki fəaliyyətinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" statusuna dair diplom təqdim etmişdir. Əlamətdar haldır ki, İslam ölkələrinin daxil olduğu təşkilatın bu yüksək adlarına layiq görülən ilk qadın Azərbaycanın birinci xanımıdır.

İSESKO-nun Baş direktoru Ə.O.Əl-Tuveycri Azərbaycan Respublikası, İSESKO və BMT-nin birgə təşkilatçılığı ilə Bakıda keçirilmiş (18-19 mart 2013-cü il) "Terrorizmin qarşısının alınması üçün əməkdaşlığa dair Beynəlxalq Konfrans"da, Heydər Əliyev Fondunun təşəbbüsü, YUNESKO və İSESKO-nun dəstəyi ilə Bakıda keçirilən "İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda (29 may-1 iyun 2013-cü il), "Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu"nda (31 oktyabr-01 noyabr 2013-cü il) iştirak etmək məqsədilə ölkəmizdə səfərlərdə olmuşdur. Prezidentin 14 yanvar 2016-cı il tarixli sərəncamı əsasında İSESKO ilə əməkdaşlığı səmərəli şəkildə əlaqələndirmək məqsədilə İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılmışdır. 13 dekabr 2018-ci il tarixli Azərbaycan Prezidentinin Sərəncamı ilə Azərbaycanın Mərakeş Krallığındakı səfiri Oktay Sudef oğlu Qurbanov iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Mavritaniya İslam Respublikasında, Seneqal Respublikasında fövqəladə və səlahiyyətli səfir və AR-in İSESCO yanında daimi nümayəndəsi təyin edilmişdir. 2019-cu il tarixində "20 Yanvar" faciəsinin 29-cu ildönümü münasibətilə İSESKO-nun saytında təşkilatın Baş katibi Əbdüləziz Əl-Tüveycrinin adından ilk dəfə olaraq bəyanat yayılmış və insanlığa qarşı bir cinayət kimi pislənilmişdir. Bəyanatda dünya ictimaiyyətinə və beynəlxalq insan hüquqları təşkilatlarına faciəyə hüquqi qiymətin verilməsi və beynəlxalq hüquqa uyğun olaraq bu cinayəti törətmiş şəxslərin cəzalandırılmasına çağırış ifadə edilmişdir.

## AZƏRBAYCANIN İSLAM DÜNYASI İRS SİYAHISINDAKI MƏDƏNİ İRS NÜMUNƏLƏRİNİN SAYI 15-Ə ÇATIB

Onu da qeyd edək ki, 2-3 dekabr 2019-cu il tarixlərində İSESCO-nun Baş qərargahında keçirilmiş İslam Dünyası İrsi Komitəsinin növbədənkənar toplantısında Azərbaycan Respublikasının aşağıdakı mədəni irs nümunələri İslam Dünyası İrsi Siyahısına daxil edilmişdir: Bakının İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı. Bu günlədə isə dekabrın 18-19-da Mərakeşin paytaxtı Rabat şəhərində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının - ICESCO-nun nəzdində fəaliyyət göstərən İslam Dünyası İrs Komitəsinin (IWHC) 11-ci iclası keçirilib. Komitə üzvlərinin qərarı ilə ölkəmizin zəngin mədəniyyətini əks etdirən 10 qeyri-maddi mədəni irs nümunəsi İslam Dünyası İrs Siyahısına daxil edilib: Yallı (köçəri, tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri; Dolma hazırlanması və paylaşılması ənənəsi, mədəni kimliyin göstəricisi; Pəhləvanlıq mədəniyyəti, ənənəvi zorxana oyunları, idman növləri və güləş; Azərbaycan muğamı; Lahıc misgərlik sənəti; Çövkən - ənənəvi Qarabağ atüstü oyunu; Azərbaycan aşıq sənəti; Kəlağayı düzəldilməsi və geyinməsi ənənəvi incəsənəti və onun simvolizmi; Tar ifaçılıq sənəti və onun hazırlanma ustalığı; Azərbaycanda xalça toxuculuğu ənənəvi sənəti. ICESCO-nun qərargahında Mərakeş rəsmiləri, təşkilata üzv ölkələrin diplomatik nümayəndəlikləri və İslam Dünyası İrs Komitəsi üzvlərinin də iştirak etdiyi mərasimdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin hazırladığı namizədlik faylları əsasında qeyd olunan elementlərin İslam Dünyası İrs Siyahısına daxil edilməsini təsdiq edən sertifikat ICESCO-nun baş direktoru Salim əl-Malik tərəfindən Azərbaycanın bu qurumdakı daimi nümayəndəsinə təqdim edilib. Azərbaycan xalqına məxsus bu qeyri-maddi mədəni irs elementləri xalqımızın dəyərləridir. Bununla da Azərbaycanın İslam Dünyası İrs Siyahısındakı mədəni irs nümunələrinin sayı 15-ə çatıb.

Dünya təşkilatları ilə müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESKO ilə də münasibətləri də möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş ICESKO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir və dünyada mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESKO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir.Azərbaycanın uzun illər ICESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirib və dünyada mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir.

***Zümrüd BAYRAMOVA***



# "Prezident seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün ölkə üzrə geniş imkanlar yaradılıb"

**"İşğaldan azad olunmuş ərazilərdə 26 məntəqə üzrə 23 mindən artıq seçici səs verə biləcək. Hər məntəqəyə orta hesabla təxminən 800-900 nəfər seçici düşür. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərdəki siyahılar dəqiqləşdiriləcək." Bu sözləri jurnalistlərə müsahibəsində Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov söyləyib.**

Məzahir Pənahov vurğulayıb ki, Azərbaycanın istənilən vətəndaşının adı ona uyğun olan ərazidə fəaliyyət göstərən seçki məntəqəsindəki siyahıya daxil edilməyibsə, MSK-ya müraciət edə bilər. O bildirib ki, xarici ölkələrdə yaşayan vətəndaşların səs verməsi üçün konsulluqlara və səfirliklərə göstərişlər verilib.

"Seçki Məcəlləsinin tələblərinə görə, beynəlxalq müşahidəçiləri dəvət etmək üçün Azərbaycanda üç səlahiyyətli qurum var. Bunlar Milli Məclis, Xarici İşlər Nazirliyi və Mərkəzi Seçki Komissiyasıdır. Milli Məclis beynəlxalq miqyasda parlament nümayəndə heyətlərini, XİN ali müşahidəçiləri dəvət edir. Seçki ilə bağlı əməkdaşlıq etdiyimiz qurumları isə Mərkəzi Seçki Komissiyası dəvət edir."

Məzahir Pənahov bildirib ki, artıq siyahılar hazırlanaraq beynəlxalq müşahidəçilərə dəvətlər göndərilib: "Buna görə də bizim beynəlxalq müşahidəçilik baxımından heç bir problemimiz olmayacaq".

MSK sədri qeyd edib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən Milli Fəaliyyət Proqramı Mərkəzi Seçki Komissiyası tərəfindən reallaşdırılan bütün maarifləndirmə layihələrinin əsas hüquqi bazasını təşkil edir. O bildirib ki, növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün ölkə üzrə bütün dairə və məntəqə seçki komissiyalarında geniş imkanlar yaradılıb.

# İnkişaf və sabitlik dövrü: 2003-2023-cü illər!

Müasir dövrümüzdə ölkəmizdə bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə düşünülmüş siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın dünyanın inkşaf etmiş ölkələri sırasında nüfuzu, çəkisi olan dövlətə çevirib. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir, onun əbədiliyi təmin edilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Ümummilli Lider Heydər Əliyev siyasəti davam etdirilir. Dövlət başçısı İlham Əliyev bütün bu illər ərzində, Ulu Öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirib.

Prezident İlham Əliyev hələ 20 il əvvəl bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə regionların inkişafına prioritet məsələ kimi baxacaq. Dövlət başçısının bu istiqamətdə atdığı mühüm addımlar Onun sözü ilə əməlinin eyni gücə malik olduğunu təsdiqləyir. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində, respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişib, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Regionlarda yeni iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırmışdır. Regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır.






### İQTİSADİ İSLAHATLARIN VƏ İNKİŞAFIN AZƏRBAYCAN MODELİ

Prezident İlham Əliyevin dərindən düşünülmüş daxili islahatları və ölçülüb-biçilmiş xarici siyasəti sayəsində hazırda Azərbaycan dinamik inkişaf edən ölkədir. Təbii ki, sabitlik, təhlükəsizlik və inkişaf bu mərhələni xarakterizə edən əsas amillərdir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir: "Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq və sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir". Azərbaycan bu gün müsəlman dünyasında sabitlik adası kimi tanınır. Sabitlik və təhlükəzsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır.

Bu gün, tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Bəli, ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi.





### SON 20 İLDƏ İNFORMASİYA VƏ RABİTƏ SAHƏSİNDƏ 10 DƏFƏDƏN ARTIQ ARTIMA NAİL OLUNUB

Statistik rəqəmlərə nəzər salsaq görərik ki, rəqəmsal inkişaf sahəsində əldə olunmuş nailiyyətlərə gəlincə, son 20 ildə informasiya və rabitə sahəsində 10 dəfədən artıq artıma nail olunmuş, bütün sahələrdə müasir texnologiyaların tətbiqi sürətləndirilib. İnformasiya və rabitə sektorunda çalışan işçilərin sayı 32 min nəfəri keçib.

İnformasiya və rabitə sektoru üzrə orta aylıq əməkhaqqı 1,500 manatı keçib. Ölkədə telekommunikasiya infrastrukturunun yenilənməsi layihəsi həyata keçirilib, bütün istiqamətlərdə müasir texnologiyaların tətbiqinə nail olunub. Əhalinin elektron dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Əhalinin rəqəmsal bacarıqları artırılıb. Nağdsız ödənişlərin genişləndirilməsi üçün elektron hökumət ödəniş sistemi - "E-gov Pay" yaradılıb və istifadəyə verilib. 40-dan çox dövlət qurumunun 350-dən artıq xidməti "Elektron hökumət" portalında vətəndaşlara təqdim olunub. Elektron xidmətlərə artan tələbat fonunda e-imzanın istifadəsi təkmilləşdirilərək "elektron imza" tokenləri yaradılıb. Azərbaycanda rəqəmsal transformasiyanı sürətləndirmək və onlayn xidmətlərdən istifadəni təşviq etmək məqsədilə SİMA adı altında bulud əsaslı yeni nəsil rəqəmsal imza istifadəyə verilib. Mərkəzləşdirilmiş İT resurs funksiyasını yerinə yetirən Regional Data Mərkəzi istifadəyə verilib. "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buluduna Keçid Planı"nın icrası üzrə 100 dövlət qurumu Cənubi Qafqaz regionunda ilk TIER III səviyyəli mövcud Data Mərkəzindən istifadə edir. Bütün infrastruktury ilə "elektron hökumət" sistemləri 2018-ci ildən etibarən Data Mərkəzinə köçürülür, dövlət əhəmiyyətli sistemlər kibermәkanda mühafizə olunur və xidmətlər rəqəmsallaşdırılır. 2018-ci ildən etibarən,Azərbaycan Respublikası vətəndaşlarına verilməsinə başlanılmış yeni nəsil şəxsiyyət vəsiqələrində e-ID tətbiq edilib. İşğaldan azad edilmiş ərazilərə "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyaları nəzərə alınmaqla əhalinin dayanıqlı məskunlaşması təmin olunur. Ölkədə internetdən istifadə və bilavasitə elektron ticarətin həcmi dəfələrlə yüksəlib. Ölkə ərazisində fəaliyyət göstərən internet provayderlərinin sayı 150-ni keçib. Əhalinin 88%-i internet, eyni zamanda genişzolaqlı internet istifadəçisidir. Ölkə əhalisinin mobil şəbəkə ilə əhatə faizi 100%, 3G şəbəkəsi üzrə əhatə 99.8%, 4G şəbəkəsi üzrə əhatə 94% təşkil edir. Hər 100 nəfərə düşən aktiv mobil genişzolaqlı internet abunəçilərinin sayı 80%-i keçib. Yüksəksürətli internet şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə "Onlayn Azərbaycan" layihəsinə başlanılıb. Artıq ev təsərrüfatlarının 50%-dən çoxunun yüksəksürətli internet xidmətlərinə çıxışı təmin edilib. İşğaldan azad olunmuş ərazilərdə mobil infrastruktur, fiber-optik kabel şəbəkəsi, müasir standartlara cavab verən telekommunikasiya qovşaqları yaradılmış, televiziya və radio proqramlarının yerüstü yayımı həyata keçirilir. Bu istiqamətdə işlər davam etdirilir. İKT sektoruna xarici investorların cəlb edilməsi və potensial xarici investorlarla yerli İT şirkətləri arasında əlaqələrin qurulması məqsədilə "İT investorlar klubu" və yerli vençur fondu yaradılıb.




## "BİZİM YOLUMUZ İNKİŞAF YOLUDUR, TƏRƏQQİ YOLUDUR"

Azərbaycan özünün telekommunikasiya peyki olan azsaylı ölkələr sırasındadır. "Azerspeyc 1" orbitə burxılması bir daha təsdiqlədi ki, bu gün Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman ölkəsi, eyni zamanda innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb. Sözsüz ki, bu Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətdir. Eyni zamanda, siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində də qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır: "Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir".



2013-cü ildə "Azerspace-1", 2018-ci ildə isə "Azerspace-2" telekommunikasiya peykləri orbitə buraxılıb. Müdafiə, təhlükəsizlik, fövqəladə hallar, təbii ehtiyatların tədqiqi, dənizçilik, ətraf mühitin mühafizəsi, şəhərsalma, xəritəçəkmə, kənd təsərrüfatı, turizm və s. kimi sahələrdə geniş şəkildə tətbiq edilən "Azersky" Yerin müşahidə peyki 2014-cü ildə orbitə buraxılıb. Cənubi Qafqazda ilk dəfə 2004-cü ildə Bakıda televiziyanın rəqəmsal sınaq yayımına başlanılıb və 2016-cı ildən Azərbaycanda rəqəmsal yayıma keçid edilib.

Hazırda ölkədə əhali yaşayan ərazilərin 99,8%-i sosial rəqəmsal televiziya yayımı ilə əhatə olunur və bu proqramlar paytaxtda SD ilə yanaşı, HD formatında da yayımlanır. 2019-cu ildən paytaxtda rəqəmsal radio yayımına (12 radio proqram) başlanılıb. 2022-ci ildən yerli televiziya proqramlarının peykdən HD formatında yayımı təmin olunur. 2022-ci il 26-29 mayda təxminən 300 min insanın ziyarət etdiyi "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı keçirilib. 2023-cü il 2-6 oktyabrda Bakı şəhərində 50 ildən sonra yenidən "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" şüarı altında Beynəlxalq Astronavtika Konqresi keçirilib. Konqresə rekord sayda - 95 ölkədən 3600 elmi məqalə təqdim olunub. Bakı Konqresi əldə edilmiş sponsorluq paketlərinin sayına görə rekord göstərici qazanıb, 22 şirkət tədbirə sponsorluq paketi alıb. Bu, son beş ölkədə Avstraliya, Almaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Fransada keçirilmiş konqreslərlə müqayisədə ən yüksək göstərici idi. Konqresdə rekord sayda - 132 ölkədən 5404 nümayəndə iştirak edib. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)", "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" uğurla icra edilib.

## SOSİAL XİDMƏT SAHƏLƏRİNDƏ İNNOVATİV YANAŞMALAR

Onu da bildirək ki. ölkəmiz nümunəvi ictimai və sosial xidmət sahələrində innovativ yanaşmaları ilə də dünyanın bir çox dövlətlərini qabaqlayır. Həmin nümunəvi xidmətin ən bariz nümunəsi olaraq ölkə başçısı İlham Əliyevin təşəbbüsü isə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin təsis edilməsini və onun himayəsi altında fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərini qeyd edə bilərik. "ASAN xidmət" Azərbaycan məhsulu, ixtirası və brendi olaraq beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək maraq və rəğbətlə xarakterizə olunur. "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər:"Mən hər bir Azərbaycan vətəndaşı üçün Prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Həqiqətən də, belə oldu: Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən iyirmi il aydın şəkildə göstərdi ki, İlham Əliyev prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Diş kökü infeksiyasının dəhşətli FƏSADLARI

**Diş toxumasını meydana gətirən mina və dentin təbəqəsi diş kökünü qoruyur. Diş kökü iltihabı diş kökünün ucunda meydana gələn bir infeksiyadır. Sınıq, boşluq və ya travma kimi müxtəlif səbəblərdən bu strukturların bütövlüyünün pozulması zərərli bakteriyaların diş kökünə çatmasına səbəb olaraq diş kökündə iltihaba səbəb olur. Bu infeksiya kök ucuna yayılaraq infeksiyanın sümüyə yayılmasına və nəticədə absesə səbəb ola bilər. Diş kökünün iltihabı uşaqdan qocaya kimi hər kəsdə baş verə bilər.**

## Diş kökü infeksiyasının səbəbləri nədir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bakteriyaların dişə və ya ətrafdakı toxumalara daxil olması üçün açılış yaradan hər şey diş kökü infeksiyasına səbəb ola bilər. Diş kökünün infeksiyasının səbəblərini aşağıdakı kimi sıralamaq olar:

-çürük,
-dişlərin qırılması,
-diş zədələnməsi,
-dişləri sıxma və ya sıxma kimi dişlərdə daimi travmaya səbəb olan davranışlar.

## Diş kökü infeksiyasının əlamətləri hansılardır?

Diş kökünün iltihabının simptomlarına aşağıdakılar daxildir:

ağrı, diş ətində şişlik, üzün şişməsi, ağızda pis dad və pis qoxu, diş ətinin qanaması, soyuğa və istiyə qarşı həssaslıq, yüksək hərarət, halsızlıq, udma və çeynəmədə çətinlik, ağzı açmaqda çətinlik, diş ətrafında həssaslıq, limfa düyünlərinin şişməsi və diş ətində abses (iltihab) əmələ gəlməsi.

## Diş kökü infeksiyasına diaqnoz necə qoyulur?

-Dişlərə toxunma: Kökündə absesi olan diş adətən toxunma və təzyiqə həssas olur.

-Rentgen: Ağrılı dişin rentgenoqrafiyası absesi müəyyən etməyə kömək edə bilər. Diş həkimi həmçinin infeksiyanın yayılmasını və digər nahiyələrdə absesləre səbəb olub-olmadığını müəyyən etmək üçün rentgen şüalarından istifadə edə bilər.

-KT müayinəsi: İnfeksiyanın digər nahiyələrə, xüsusən də boyun nahiyəsinə yayıldığı hallarda infeksiyanın nə qədər ağır olduğunu görmək üçün CT müayinəsi təyin oluna bilər.

## Diş köklərini necə müalicə edirlər?

Müalicə iltihaba və xəstənin ümumi vəziyyətinə görə dəyişə bilər. Müalicənin məqsədi diş kökündəki infeksiyadan xilas olmaq olsa da, müalicə aşağıdakı üsullarla edilə bilər.

**-Absesin drenajı:** Diş həkimi absesdə kiçik bir kəsik açır və yığılan irinlərin xaricə axmasına şərait yaradır, sonra nahiyəni duzlu su ilə yuyur. Bu prosedurun sonunda şişkinlik azalır.

**-Kanal müalicəsi:** Bu müalicə infeksiyadan xilas olmağa və yoluxmuş dişi xilas etməyə kömək edir. Bunun üçün diş həkimi xəstə mərkəzi toxumanı (pulpa) çıxarır və absesi drenaj edir. Diş həkimi daha sonra dişin pulpa kamerasını və kök kanallarını dolduraraq bağlayır.

**-Dişlərin çəkilməsi:** İltihabdan təsirlənən dişi başqa üsullarla xilas etmək mümkün olmadıqda, diş həkimi dişi çıxarır və absesi drenaj edir.

**-Antibiotiklərdən istifadə:** İnfeksiya yaxınlıqdakı dişlərə, çənəyə və ya digər nahiyələrə yayıldıqda, diş həkimi daha da yayılmasının qarşısını almaq üçün antibiotiklərdən istifadə etməyi tövsiyə edir.

Diş kökü infeksiyası haqqında ən çox verilən suallar:

## Diş kökünün iltihabı üçün risk faktorları hansılardır?

Diş kökü infeksiyasının risk faktorlarını aşağıdakı kimi sıralamaq olar:

**Pis diş vərdişləri və zəif ağız gigiyenası:** Dişlərə və diş ətlərinə düzgün qulluq etməmək. Məsələn, gündə iki dəfə dişlərinizi fırçalamamaq və diş ipi istifadə etməmək kimi vərdişlər diş problemləri riskinizi artıra bilər. Bu vəziyyətə diş çürüməsi, diş əti xəstəliyi, diş absesi və digər diş- ağız fəsadları daxil ola bilər.

**Şəkərli məhsulların həddindən artıq istehlakı:** Şirniyyat və qazlı içkilər kimi şəkərlə zəngin məhsulların tez-tez yeyilməsi və içilməsi mövcud çürüklərin irəliləməsinə və diş absesinə çevrilməsinə səbəb ola bilər.

**Quru ağız:** Quru ağız diş çürüməsi riskini artıra bilər. Ağız quruluğu tez-tez müəyyən dərmanların yan təsirləri və ya yaşlanma ilə bağlı problemlər nəticəsində yaranır.



**Siqaret çəkmək:** siqaret çəkənlərin diş infeksiyasına tutulma ehtimalı siqaret çəkməyənlərə nisbətən təxminən iki dəfə çoxdur.

## Bədənə yayılan diş kökü infeksiyasının əlamətləri hansılardır?

Diş kökünün iltihabının bədənə yayıldığı hallarda adətən ağrı, qızdırma, şişkinlik, halsızlıq və yorğunluq kimi ümumi simptomlar meydana çıxır.

## Diş kökünün iltihabı əməliyyatı necə aparılır?

Həkim bu vəziyyətdə tətbiq olunacaq müalicə üsulunun dişin cərrahi çıxarılması olduğuna qərar verərsə, diş çəkilişi həyata keçirilir.

## Diş kökünün iltihabından qurtulmaq üçün neçə günə lazımdır?

Diş kökünün iltihabının nə qədər davam edəcəyi sualına qəti cavab yoxdur. Tətbiq ediləcək müalicə növü prosesi müəyyən edir. Ona görə də sağalma üçün dəqiq vaxt vermək düzgün deyil.

## Diş kökünün iltihabı üçün bitki mənşəli həlli varmı?

Diş kökünün iltihabı peşəkar kömək tələb edən problemdir. Diş kökünün iltihabı üçün bitki mənşəli həll yoxdur.

## Diş rentgenində iltihab görünürmü?

Diş iltihabı kəskin olduqda rentgen ilə müəyyən edilə bilməsə də, sonrakı mərhələlərdə rentgendə görünə bilər.

## Diş kökünün iltihabı öz-özünə yox olur?

Diş kökünün iltihabı müalicə edilmədikcə öz-özünə keçməyəcək. Diş kökünün infeksiyası dişin içindəki pulpanın ölməsinə səbəb olarsa, diş ağrısının dayanmasına səbəb ola bilər. Bu bölgədəki sinirlər artıq fəaliyyət göstərmir, ağrının dayanmasına və hiss olunmasına mane olur. Bununla belə, bakteriyalar ətrafdakı toxumaları yaymağa davam edir. Diş infeksiyası əlamətlərinin olduğu hallarda diş həkimi ağrı olmasa belə onları mütləq müayinə etməlidir.

## Diş kökünün iltihabı müalicə olunmazsa nə baş verir?

Diş kökünün infeksiyası müalicə olunmazsa, iltihab ətraf toxumalara yayıla bilər. Xroniki iltihablar ağızda infeksiya mərkəzi olaraq qala və digər pozğunluqlara səbəb ola bilər.

## Yoluxmuş diş kökü olan diş çıxarıla bilərmi?

Əgər diş kökünün iltihabı müalicə olunmursa, diş mütləq çəkilməlidir.

## Diş kökünün iltihabı partlayarsa nə olar?

Diş kökünün iltihabı partlayanda içindəki maye dağılır. Ancaq bu iltihab aradan qalxsa belə, yenidən baş verəcəyi üçün müalicə edilməlidir.

## Diş iltihabı orqanizmə zərər verirmi?

Diş iltihabı bədənə sistemli təsir göstərə bilər. Xəstəliyə səbəb olan bakteriyalar yoluxmuş dişdən qana daxil olduqda, müxtəlif sağlamlıq problemləri yarana bilər. Bədən bakteriya və viruslar tərəfindən hücuma məruz qaldıqda fərqli reaksiya verir. Bəzi sağlam insanlar müalicə olunmamış diş infeksiyalarından zərər görməsələr də, bəzi xəstələrdə aşağıdakı sağlamlıq problemləri ola bilər:

**Sümük infeksiyası:** Yoluxmuş dişə yaxın olan bakteriyaların ilk hədəfi onu əhatə edən sümüklər, o cümlədən çənə sümüyüdür. Sümük infeksiyası və ya osteomielit, qan dövranından keçən bakterial infeksiya səbəbiylə sümük iliyinin və ya sümüyün iltihabıdır. Ağır osteomielit halları çox ağrılıdır və sümük quruluşunu zədələyir. Ən pis vəziyyət, bakteriyaların bədənə qalib gəlməsi və həyat üçün təhlükə yaratmasıdır. Müalicə 4-6 həftə davam edə bilən antibiotiklər və antifungal dərmanlar kursunu əhatə edir.

**Sinuslarınızdakı qan damarlarının infeksiyası:** Kavernoz sinus trombozu, beynin dibində qan laxtalanması ilə nəticələnən sinuslardakı qan damarlarının infeksiyasıdır. Gözlərdən, burundan, qulaqlardan və ya dişlərdən infeksiyanın üzün ətrafındakı damarlardan keçdiyi və daha çox üz pozğunluqlarına səbəb olduğu nadir və həyati təhlükəsi olan bir xəstəlikdir. Ancaq bu, son dərəcə təhlükəlidir və diaqnozdan dərhal sonra müalicə edilməlidir. Bu pozğunluğu müalicə etməyin ən yaxşı yolu bir sıra testlər vasitəsilə infeksiya mənbəyini müəyyən etmək və xəstəliyə səbəb olan bakteriyaları zərərsizləşdirməkdir.

**Parafaringeal abses:** Parafaringeal abses, boynun dərin hissəsində, hipoid sümüyünün yaxınlığında yerləşən bir infeksiyadır. Yoluxmuş nahiyənin şişməsi tənəffüs yollarını bağlaya və xəstələrin nəfəs almaqda çətinlik çəkməsinə səbəb ola bilər. Parafaringeal absesin simptomları arasında boğaz ağrısı, qızdırma və boyun şişməsi var. Boğazdakı absesi boşaltmaq üçün cərrahi müalicə olunur. Əgər aşkar edilməzsə, abses karotid arteriyaya axa və həyat üçün təhlükə yarada bilər.

**Sepsis və ya qan infeksiyası:** Müalicə olunmamış diş kökü infeksiyasının ən öldürücü təsiri sepsisdir. Bu, bakterial infeksiya bütün qan dövranına yayıldıqda və immunitet sistemi orqanların parçalanmasına, damarların tıxanmasına səbəb olan bütün sistem iltihabına səbəb olduqda baş verir. Bədəndə adekvat qan axını olmadan qan təzyiqi düşür və böyrəklər, ağciyərlər, qaraciyər septik şok səbəbiylə sıradan çıxır. Bakteriyaların qanda yayılması ilə əlaqəli bir çox tibbi vəziyyət sepsisə səbəb ola bilər. Buna görə də diş kökü infeksiyası heç vaxt adi hal kimi qəbul edilməməlidir.

## İltihablı dişləri fırçalamaq olarmı?

Dişlər iltihablı olsa belə, fırçalama davam etdirilməlidir.

## Diş kökünün iltihabı üçün nə yaxşıdır?

Diş kökünün iltihabı peşəkar kömək tələb edən problemdir.

## Diş kökünün iltihabının qarşısını almaq olarmı?

Diş kökünün infeksiyasının qarşısını almaq üçün diş çürüməsinin qarşısını almaq lazımdır.

Diş çürüməsinin qarşısını almaq üçün isə aşağıdakılar edilməlidir:

- Tərkibində flüor olan diş pastası ilə gündə ən azı iki dəfə dişləri iki dəqiqə fırçalayın;
- Hər gün dişlərinizin arasını təmizləmək üçün diş ipindən istifadə edin;
- Diş fırçasını hər 3-4 aydan bir dəyişdirin;
- Sağlam qidalanın, şəkərli qidaları və yemək arası qəlyanaltıları azaldın;
- Diş müayinələri və peşəkar dişlərin təmizlənməsi üçün müntəzəm olaraq diş həkiminə baş çəkin;
- Siqareti atın;
- Lazım olduqda diş çürüməsinə qarşı antiseptik ağız yaxalama suyundan istifadə edin.

*Ayşən Vəli*

ARAŞDIRMA

# O ki xəzinədir, qorunmalıdır...

**Xəzinə-pul, cəvahirat, qiymətli əşyalar saxlanan yer mənasını verir və ilk səslənmədə göz önündə maddi bir varlıq canlanır. Qədimdə hökmdar saraylarında qızıl, qaş-daş və digər maddi dəyərlər saxlanılan yer idi xəzinə. İndi isə bütün dövlətlərdə xəzinə ona məxsus pul, sərvət və torpaq anlamındadır. Və xəzinə hansı əsrdə harada, necə, nə formada olubsa, onun qorunması möhkəm əsaslarla təşkil olunub və olunmaqdadır. Çünki o, xəzinədir.**

Maddi nemətlərin saxlandığı xəzinə ilə yanaşı, mənəvi dəyərlərə məxsus xəzinə də vardır ki, bu gün məhz ondan söhbət açmaq istəyirik. O xəzinə ki, nə dövlətlərə, nə saraylara aiddir. Bu xəzinə dünyada yaşayan bütün insanların içində daşıdığı bir xəzinədir. Mənəviyyat xəzinəsidir adı. Bu söhbətimizdə kişilərin deyil, qadınların bu xəzinələri necə qorumasından, mühafizə etməsindən danışaq.



## Bədənimiz xəzinəmizdir

Bəli, hər bir qadının bədəni onun xəzinəsidir. Vaxtilə saraylarda xəzinələr necə qorunurdusa, bunun üçün əlisilahlı mühafizəçilər gecə-gündüz necə ayıq-sayıq dayanırdılarsa, elə bu gün dövlət xəzinələri necə qorunursa, hər bir qadın da özü öz xəzinəsinin qoruyucusu, mühafizəçisi olmalıdır.

Kiçik yaşlarında biz qızlarımızı-xəzinələrimizi qoruyuruq. Onları qorumaq əlbəttə, biz ana-ataların borcudur. Və zamanla övladlarımızı elə yetişdirməyə çalışırıq ki, müəyyən yaşdan sonra onlar özləri özlərini qoruya bilsinlər. Lakin buna nail ola da bilirik, olmaya da. Bu da təbii ki, bizim özümüzdən, xüsusilə analardan asılıdır. Biz qızlarımıza nəyi necə təbliğ edə biliriksə, illər sonra onun bəhrəsini də eynilə görürük.



Bədənimiz xəzinəmizdir, deyirik. Bəs biz qızlarımıza bunu kiçik yaşlarından aşılaya bilirikmi? Onların bədənlərini qorumağı, mühafizə etməyi, bu dəyəri qoruyub saxlamağı yetərincə öyrədə bilirikmi? Bu gün açıq-saçıq geyinən qızlarımızın bədənlərinin qapalı qalmalı olan yerləri hər kəsin gözü önündədir. Qısa ətəkləri, yaxası normaldan çox aşağı, göbəkdən yuxarıda qalan qısa köynəkləri, adı şalvar olub ancaq qızlarımızın örtülü qalmalı əzalarını bayırda qoyan şalvarları kim alır onlara? Qızlar bu cür geyinmələri üçün kiminlə məsləhətləşirlər?



Fərqinə varırıqsa, müasirlik adı altında dəyərlərimiz əlimizdən gedir. Biz xəzinəmizin ağzını açıb qoymuşuq ortaya, gələn-gedən nə istəyirsə, götürür, keçir. Axı bu xəzinə bir gün tükənə bilər. Bu kimi isə qorxuya, təşvişə salmırmı?

Nə üçün bizim bədənimiz kimlərinsə gözü önündə olmalıdır? Nə üçün biz qızlarımızı qarşımızda əyləşdirib bir ana kimi onlara bu qiymətli, dəyərli xəzinə və onu qorumaq, mühafizə etmək barədə söhbət etmirik.

## Fabriklər varlandıqca, biz kasıblaşırıq

Onsuz da bütün dünyada tikiş fabrikləri "haqqın" yolunu tapıb. Az parça ilə böyük qazanc yolunu seçiblər. Qısa ətəklər, qolsuz, yaxasız köynəklər, donlar belə fabriklərə milyonlarla vəsait gətirir. Fabriklər varlandıqca, biz kasıblaşırıq. O mənada kasıblaşırıq ki, mənəviyyatımız əlimizdən gedir. Həm baha qiymətə paltar alıb geyinməli oluruq, həm də bu geyimlərlə mənəviyyatımızı ucuzlaşdırmaq qarşısında qalırıq.

Kimlər verir bu cür paltarların dizaynını? Heç qadın olaraq bir yerə toplaşıb onlara qarşı üsyana qalxa bilmişikmi? Yoxsa gündəlik iş və ev həyatına başımız elə qarışıb ki, gözümüzün önünü belə görə bilməmişik? Tamamilə belədir. Belə olmasaydı, biz qızlarımızın geyim-keciminə diqqət edərdik, onların nə geyindiyi ilə maraqlanardıq. Əksinə, sanki bir pərdə çəkilib gözlərimiz önünə. Bütün bunları olarmış kimi qəbul edib əyləşmişik yerimizdə. Başımıza seriallarla, telefonlarla, əttökən sosial şəbəkələrlə qatıb qızları ötürmüşük özbaşına.



Hələ böyük qızlar bir kənara, 2-3 yaşlı körpə qızlarımız üçün fabriklər eyni paltarları tikib bizə təqdim edirlər. Bir də baxırsan ki, küçədə gözəl bir qız uşağı, göbəyi açıq paltarda . Eynilə böyüklərin paltarının kiçik forması. Biz də bunları sevə-sevə alıb geyindiririk bu körpələrə ki, elə bu ağılla, başla böyüyün. Görək onlar böyüyəndən sonra əyinlərinə normal paltar geyinib öz xəzinələrini gizlədə biləcəklərmi? Əlbəttə, xeyr. Çünki biz onları elə böyüdürük. Etinasızlığımızla, "müasirliyə", dəbə aldanmağımızla elə bir tərbiyə aşılayırıq ki, onlar düşünürlər ki, bu, elə belə də olmalıdır.

Lakin təəssüf ki, itiririk. Mənəvi dəyərlərimizi fabriklər, dizaynerlər, əlimizdən alır, biz də zaman gələcək ki, onların arxasınca baxa-baxa qalacağıq.

## Çılpaqlıqla açıqlığın fərqi

Hər ikisi özlüyündə ayrı-ayrı mənaları izhar etsə də, lakin hər ikisi geyimdə eyni mənanı verir. Ya çılpaq gəzmiş, ya bədənin mübhəm yerlərini bayırda qoymuş, bunların hər ikisi eynidir. Elə söz düşərkən deyəndə ki, bu qızlar niyə belə geyinirlər, bunların anaları haraya baxır, cavab alırıq ki, nə olub ki, çılpaq deyillər ki. Əslində isə bu cür cavab özünümüdafiədən başqa bir şey deyil. Bəs özünü müdafiə edən adam nə üçün xəzinəsini müdafiə edə, qoruya bilmir, maraqlıdır.

Qadının sinəsi, göbəyi, budları onun kiminsə görməməli olduğu əzalarıdır. Bizim qədim milli geyimlərimizdə bu hissələrə çox diqqət verilirdi. Görənlər görüb, görməyənlər isə bu gün muzeylərimizdə nümayiş etdirilən qadın geyimlərindən ibrət dərsi götürə bilərlər. Bəli, o zamanlar qadınlar öz xəzinələrinin sahibi idilər. Bu xəzinə onlar tərəfindən göz bəbəyi kimi qorunurdu.

Bu gün isə biz açıq-saçıq geyimlərlə öz milliliyimizin qənimlərinə çevrilmişik. Düşünürük ki, bu geyimlərlə dəbliyik, müasirik, gözəl görünürük. Lakin tamamilə əksinə. Açıq geyinməklə nə dəbli, nə müasir, nə də gözəl görünmək olar. Gözəllik açıqda deyil, gizlidədir: sinənin örtülü olmasında, göbəyin ümumiyyətlə, görünməməsində, ayaqların uzun ətəyin altında mübhəm qalmasındadır. Belə olanda gözəl bir qadın dayanır gözlər önündə. Onun zərif bədəninə normal biçimli paltarlar xüsusi bir gözəllik verir. Burada bir xəzinə effekti yaranır. Bu xəzinənin içərisində nə var, onu necə görmək olar marağı gizlənir. Biz öz xəzinəmizi qoruduqca, mühafizə etdikcə ətrafdan bir o qədər diqqət çəkir. Və bizim mühafizəkarlığımız zamanla özümüzün özümüzə hörmətinə, eləsə də ətrafdakıların bizə hörmətinə səbəb olur. Çünki bizim dəyərimizi mühafizə etməyimiz onlara da gün kimi aydın görünür.

## Paltar qısalır, saçlar uzanır

Vaxt vardı ki, paltarlar da uzun idi, saçlar da. Saç hər zaman Azərbaycan qadınının yaraşığı olub. Uzun saç bizim milli geyimlərimizin ən gözəl aksesuarı da olub. O paltarların üzərinə bir hörük atmaq bu gözəlliyi füsunkarcasına tamamlayıb.

Lakin zaman ötdükcə, biz o saçlara divan tutduq. Bir aralar tam qısaltdıq. Daha sonra ətəklərimizi, donlarımızı qısaltdıqdan sonra saçlarımızı uzatmağa başladıq. O yerə kimi uzatdıq ki, saçlarımız ətəklərimizlə, şortlarımızla bir oldu. Bu da oldu dövrün dəbi. Qısa ətəklər, şortlar, üzərində o qədər uzunluqda saçlar...

Əslində necə, buna dəb demək olarmı? Bəlkə də kimlər üçünsə dəbdir, müasirlikdir. Bəlkə də kimlərsə bunun üçün bizi qınayar, geridə qalmış adlandırar da. Lakin həqiqətdə bu, heç də xoşagəlim bir dəb deyil. Çünki o gözəllikdə saçlar açıq bir bədənin nə qüsurunu örtür, nə də eyibini. Əksinə, bu açıqlığa yeni bir cəlbedicilik qatır ki, bu, bizim qızlarımıza əsla lazım deyil.

Elə dərd də buradadır ki, əksər qızlarımız bu cür geyimlərə meyillidirlər. Və əksər analar da onların qarşısını almaqda ya acizdir, ya da bu geyimləri olduqca normal hesab edir. Beləliklə, xəzinəmiz təhlükəli bir vəziyyətdə qalır. "Nə etməli" sualı da elə buradaca öz cavabını axtarır.

## O ki xəzinədirsə...

Bəli, bilən bilir, bilməyən də qoy öyrənsin ki, qadının bədəni onun qiymətli xəzinəsidir. Bu xəzinəni qorumaq üçün o, bütün gücünü sərf etməlidir. Çünki xəzinəyə tək bir dəfə soyğunçuluq başlayarsa, bu, davam edəcək. Qarşısını almağa güc yetməyəcək. Belə isə elə ən başdan xəzinə qorunmalıdır. Birinci analar tərəfindən, sonra isə qızlarımızın özü onu mühafizə etməlidirlər. Necə ki, bir deyimimizdə deyilir: ana, özümü tanıyanadək sən məni qoru, sonra mən özümü qoruyacağam. Bax bu deyim həmin xəzinələrin qorunmasına aiddir. Çünki hər şey elə qorumaqdan, qorumaqla yanaşı, anlatmaqdan, başa salmaqdan başlanır. Yoxsa qorumaq tək başına bir işə yaramaz. Eyni zamanda anlatmaq, zamanla öyrətmək lazımdır ki, övladımız vaxtı çatanda özünü qoruya bilsin, yəni geyimi, davranışı, hərəkəti ilə bir qiymətli xəzinə və bu xəzinənin də dəyərli olduğunu hər kəsə nümayiş etdirə bilsin. Əks təqdirdə biz milli dəyərlərimizin üzərindən xətt çəkmiş olarıq.

***Mətanət Məmmədova***

# Dahi Heydər Əliyev siyasəti: Qüdrətli Azərbaycan naminə!



Hər bir azərbaycanlı yaxşı bilir ki, mənalı ömür yolu, müdrik və praqmatik siyasi fəaliyyəti, Vətən və xalq qarşısında misilsiz xidmətləri məhz müstəqil Azərbaycanın və Partiyamızın qurucusu Ümummilli Liderimiz Heydər Əliyevi öz tarixi, milli dəyərləri, dövlətçilik ənənələri ilə fəxr edən azərbaycanlıların qürur mənbəyinə çevirmişdir. Ulu Öndər bütün ömrünü Azərbaycanın maraqları naminə həsr etmiş böyük şəxsiyyətdir. Azərbaycanda bütün sferalarda dahi Heydər Əliyev siyasətinin izi vardır. Həmin sahələrdən biri iqtisadiyyatdır ki, Ümummilli Liderin təşəbbüsü ilə bu sahədə böyük nailiyyətlər əldə edilib. Əlbəttə ki, iqtisadi gücü olmayan dövlət hər an məhv olmaq təhlükəsi ilə üzləşə bilər. Tarixi keçmişimizə ekskursiya etsək görərik ki, 1969-1982-ci illərdə ölkəmizə ilk dəfə rəhbərlik etməyə başlayan dahi Heydər Əliyevin böyük siyasi fəaliyyəti ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verildi, 630 min yeni iş yeri açıldı. Sənaye istehsalı 2,7 dəfə, tələbat mallarının istehsalı 3 dəfə, kənd təsərrüfatı istehsalı 2,7 dəfə, taxıl, pambıq, üzüm, ipək, tərəvəz, tütün, bostançılıq məhsulları istehsalı sahəsində məhsuldarlıq 1,8 - 2,6 dəfə artdı, heyvandarlıqda artım isə 2,7 dəfə oldu.Taxıl istehsalı 573,9 min tondan 1 milyon 211,3 min tona, üzüm istehsalı 272 min tondan 1 milyon 725,4 min tona,pambıq istehsalı 299,4 min tondan 831,2 min tona, meyvə-tərəvəz istehsalı 410 min tondan 850 min tona yüksəldi. Bütün bunlar,



***Rafiq Əliyev***
***YAP Yevlax rayon təşkilatının sədri***

aparılan genişmiqyaslı işlər, həyata keçirilən uğurlu iqtisadi layihələr geriləməkdə olan Azərbaycan iqtisadiyyatını sözün əsl mənasında dirçəltdi.

Ümummilli Lider Heydər Əliyev həmin dövrlərdə bütün digər bölgələrimiz kimi Yevlaxa da daim xüsusi diqqət və qayğı göstərmişdir. Dahi şəxsiyyətin hər dəfə rayonumuza səfər etməsi rayonun sosial-iqtisadi, aqrar inkişafına təkan vermiş və nəticədə XX yüzilliyin ikinci yarısında Yevlax özünün sözün həqiqi mənasında tərəqqi dövrünü yaşayırdı. Xüsusilə vurğulamaq lazımdır ki, SSRİ məkanında "Yunun İlkin Emalı" fabrikinin Yevlaxda tikilməsi nəticəsində rayonda 2000-dən artıq yeni iş yerləri yaranmış, şəhərdə çox sayda sənaye tikinti müəssisələri fəaliyyətə başlamışdır. Məhz dahi Heydər Əliyevin təşəbbüsü ilə Yevlax Respublikada 4-cü iri sənaye şəhərinə çevrilmişdir. Bununla yanaşı 1980-ci illərdə Milli Liderimizin xüsusi diqqəti nəticəsində Yevlax ən böyük pambıqçılıq rayonuna çevrilmiş, 30 min tondan çox pambıq toplanmışdır. İnkişaf yolunda addımlayan rayonumuzda çox sayda yaşayış binaları, təhsil, səhiyyə, mədəniyyət müəssisələri tikilib vətəndaşlarımızın istifadəsinə verilmişdir. Dahi Heydər Əliyevin Xaldan kənd kompleks orta məktəbində olması sonradan həmin məktəbin SSRİ məkanında tanınan təhsil ocağına çevrilməsinə əsaslı zəmin yaratmışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, bu dövrdə qeyri neft sektoru ilə yanaşı neft sektoru sahəsində böyük irəliləyişlər baş vermişdir. Ümumilikdə ölkəmizdə neft hasilatı 2,8 dəfə, maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artdı. Sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəldi, 4400 yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar istehsal olundu ki, bunlardan da 400-ü keçmiş SSRİ-də ilk dəfə istehsal edilirdi. Əgər 1969-cu ilədək olan 100 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə - cəmi 13 il ərzində onların sayı 1048-ə çatdırıldı.1971-ci il martın 28-də Azərbaycanın neft hasilatı tarixində 1 milyard ton "qara qızıl" çıxarıldı. Bütün bu uğurlar Milli Liderimiz Heydər Əliyevin bənzərsiz siyasətinin göstəricisidir. 1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. SSRİ-kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında Azərbaycan oğlunun yüksək mövqe tutması çox möhtəşəm tarixi hadisə idi. Bu illər ərzində də Azərbaycanda bütün sahələrdə olduğu kimi iqtisadi sahədə yüksək inkişaf var idi . Azərbaycan iqtisadi göstəricilərinə görə digər ölkələrdən geridə olsa da, dahi şəxsiyyətimizin apardığı müdrik siyasət nəticəsində ölkəmiz 15 respublikanın olduğu 14-cü sıradan 2-ci sıraya uğurla qalxdı. Daha sonra tarixi faktlar göstərir ki, bəli, Ulu Öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postunu tutması Qorbaçov-erməni qruplaşmasına əsla sərf etmirdi və onların hədəfi Azərbaycanın böyük oğlunu bu vəzifədən uzaqlaşdırmaq idi. Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttə etiraz olaraq Heydər Əliyev 1987-ci il oktyabrın 21-də tutduğu vəzifədən istefa verdi. 1990-cı illərin əvvəllərində Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və yeni əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı. Bütün baş verən neqativ proseslər 20% torpaqlarımızın itirilməsi ilə nəticələndi. Belə bir gərgin vəziyyətdə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə yenidən qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanın Qurtuluşuna imza atdı, ölkəni məhv olmaqdan xilas etdi. Belə ki,1993-cü il iyunun 15-də dahi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı.

1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə Ulu Öndər Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladı. Bütün bunlar öz xalqının Ümummilli Liderinə olan sevgisinin və sonsuz inamının göstəricisi idi. Xalq öz xilaskarını heç zaman unutmurdu. Elə bunun nəticəsidir ki, 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə xaos və anarxiyaya son qoyulmasına, ictimai-siyasi sabitliyin bərqərar edilməsi istiqamətində gərgin fəaliyyətə başladı. Ölkəmizə Prezident kimi rəhbərlik etdiyi 10 il ərzində Azərbaycan digər sahələrdə olduğu kimi iqtisadiyyat sahəsində də növbəti uğurlu inkişaf yoluna qədəm qoydu. 1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında dünyanın 7 ölkəsinin məşhur neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Bu saziş ölkəmizin dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi kimi tanınmağa başladı. Müqavilə digər sahələrdə çalışan şirkətlərin də ölkəmizə marağını artırdı. Eyni zamanda qeyd etmək lazımdır ki, bu müqavilənin imzalanması Azərbaycan iqtisadiyyatının inkişafına verilmiş ən böyük töhfə idi. 1997-ci ilin sentyabrında "Əsrin müqaviləsi" çərçivəsində qazma işlərinin başlandığı "Çıraq" yatağında noyabrın 7-də ilk neft hasil olundu. Noyabrın 12-də bu münasibətlə platformada Ulu Öndər Heydər Əliyevin, layihənin əməliyyatçısı olan BP şirkətinin və tərəfdaşlarının nümayəndələrinin, xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə təntənəli mərasim keçirildi. Bu tarixi hadisə Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı oldu. 2005-ci ilin fevralında "Mərkəzi Azəri" yatağından, 2006-cı ilin yanvarında "Qərbi Azəri" yatağından, 2006-cı ilin oktyabrında isə "Şərqi Azəri" yatağından neftin hasilatına başlanıldı. Digər bir statistik göstəriciyə baxsaq;- 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək 128 xarici dövlətlə idxal-ixrac əməliyyatları aparıldı. 2002-ci ildə xarici ölkələrlə ticarət dövriyyəsi 3 milyard 832,9 milyon ABŞ dollarına çatdı və 1993-cü illə müqayisədə 2,8 dəfə artdı.Bütün bu uğurların əsasında Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti dayanır.

Hər bir vətəndaşımız fəxr edir ki, hazırda Dahi Heydər Əliyev siyasəti Ölkə Prezidenti, Partiyamızın Sədri cənab İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir. Bəli, qüdrətli dövlətin var olması üçün həmin dövlətin güclü iqtisadiyyatı olmalıdır. Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır.Məhz güclü iqtisadiyyatı olan dövlət kimi Azərbaycan heç bir ölkədən və ya heç bir beynəlxalq təşkilatdan maliyyə dəstəyi almadan,öz gücü hesabına Müzəffər Ali Baş Komandan, dövlətimizin başçısı cənab İlham Əliyevin ali rəhbərliyi ilə cəmi 44 gün davam edən Vətən müharibəsində-haqq savaşımızda işğalçı Ermənistan ordusunu darmadağın etdi. Bu parlaq Qələbə möhtərəm Prezidentimizin bənzərsiz siyasəti və Azərbaycan Ordusunun rəşadəti hesabına əldə olundu. Bu tarixi hadisə bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycanın xilaskar oğlu dahi Heydər Əliyevin müdrik ideyaları keçmişdə olduğu kimi bu gün də yaşayır, gələcəkdə də yaşayacaqdır.

# Rusiyalı nüvə fiziki: "Metsamor AES region üçün böyük təhlükə mənbəyidir"

**Rusiyalı fizik mühəndis, "Radioaktiv Tullantıların Təhlükəsizliyi" proqramının eksperti Andrey Ojarovski "Caliber" analitik mərkəzinə müsahibəsində Metsamor AES-lə bağlı danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**





- Ermənistan Rusiya ilə qurulmuş əlaqələri pozmaq mərhələsindədir və Qərb İrəvana müxtəlif sahələrdə, o cümlədən nüvə enerjisində getdikcə daha fəal yardım və əməkdaşlıq təklif edir. Və bu narahatlıq doğurur. Belə ki, ABŞ Ermənistana Metsamordakı AES üçün Rusiya nüvə yanacağını tamamilə dəyişdirməyi, onu özünün yanacağı ilə təmin etməyi təklif etdi. Amma belə bir fikir var ki, o yanacaq, postsovet məkanındakı AES-lər, o cümlədən Ermənistan AES-i üçün uyğun deyil. Rusiya yanacağının Amerika yanacağı ilə əvəzlənməsi bütün Cənubi Qafqaz regionu üçün təhlükə yaradan reaktorun sıradan çıxmasına səbəb ola bilərmi?

- Həqiqətən də, nə olursa-olsun, Rusiyanın enerji resurslarından- qazdan, neftdən və ya uran yanacağından- imtina etməsi bir növ tendensiyaya çevrilib və ABŞ-ın Ermənistana nüvə yanacağı idxalını əvəz etməyi təklif etməsi tamamilə məntiqlidir. Ancaq nüanslar var: Ermənistan reaktor da daxil olmaqla SSRİ dövründən qalan VVER 1000, həmçinin VVER 440 tipli reaktorları üçün yanacağın Amerika istehsalı olan nüvə yanacağı ilə dəyişdirilməsi yaxın gələcəkdə mümkün deyil.

***- Niyə?***

- Çünki bu sinfə aid reaktorlar üçün yanacaq çatışmazlığı var. Nəzərinizə çatdırım ki, nüvə yanacağı təkcə zənginləşdirilmiş uranın özü deyil, həm də əlavə komponentlər, məsələn, yanacaq yığımıdır. Və əgər bir çox ölkələr uran yanacağı istehsal edirsə, onda olan bütün komponentlər yalnız texnoloji nəhəng ölkələr, birbaşa nüvə texnologiyaları istehsalçıları tərəfindən istehsal olunur. Bu yanacaq Sovet texnologiyalarında olan bu əlavə elementlərin dizaynında cüzi də olsa fərqlənir, ona görə də indi ABŞ Fransa ilə birlikdə oxşar yanacaq növünü inkişaf etdirir. Və gələcəkdə dəyişdirmə bu ssenari üzrə baş verərsə, Ermənistan reaktorunun işləməsi üçün heç bir texniki təhlükə gözlənilmir, hər şey öz qaydasında işləməlidir.

Əvvəllər bu baş vermirdi, çünki Rusiya bu cür prosesləri məharətlə idarə edib, öz nüvə yanacağını kifayət qədər ucuz qiymətə satır və müxtəlif ölkələr onu həvəslə alırdılar. Amma indi, təəssüf ki, vəziyyət dəyişib, "Rosatom" Britaniyada artıq sanksiyalara məruz qalıb və təbii ki, bu, tezliklə Avropanın qalan hissəsində də baş verəcək.

Amerika yanacağının Sovet reaktorları üçün tamamilən yararsız olması barədə bəyanat daha çox mifdir. Taleyin ironiyası odur ki, bir vaxtlar Qərb tipli reaktorlar üçün, məsələn, İsveç və ya İsveçrədəki atom elektrik stansiyaları üçün uğurla yanacaq istehsal edən və satan Rosatom idi və heç bir texniki problem yaranmadı.

***- Ötən il ABŞ da fəal şəkildə Ermənistana kiçik atom elektrik stansiyaları şəbəkəsini inkişaf etdirməyi təklif edib. Ermənistan hökuməti 2023-cü il iyunun 1-də ABŞ-la nüvə enerjisi sahəsində əməkdaşlığa dair yeni saziş layihəsini təsdiqləyib. Siz Ermənistanın belə nüvə reformasiyası perspektivini necə qiymətləndirirsiniz, bu nə dərəcədə realdır, regionun digər ölkələri üçün risklər varmı?***

- ABŞ və ya Rusiyanın köməyi ilə yeni nüvə reaktorlarının tikilməsi planları nə dərəcədə realdır? Bu, daha çox pul məsələsidir. Əgər istehsalçı belə bir layihəyə sərmayə qoyarsa, o zaman Ermənistanın bunu məmnuniyyətlə qəbul edəcəyini düşünürəm. Amma mən Ermənistanın atom elektrik stansiyası kimi bahalı layihəyə sərmayə qoyma imkanını görmürəm, sadəcə olaraq, Yerevanın bunun üçün resursları yoxdur.

Digər tərəfdən, deyə bilərik ki, qlobal enerji istehsalında nüvə sənayesinin payı hər il durmadan azalır və yeni AES-in işə salınması çox nadir hadisədir. Və burada Ermənistan yaxşı düşünməlidir. Atom elektrik stansiyaları bahalıdır, tikintisi uzun müddət, onilliklər tələb edir və bu müddət ərzində sərmayə qoyulmuş vəsaitlər mahiyyətcə dondurulur. Amma bu pula külək və ya günəş elektrik stansiyaları, yaxud bərpa olunan enerji mənbələri olan digər obyektlər tikilsəydi, inanın ki, son məqsədə daha tez nail olmaq olardı- əhalinin və sənayenin elektrik enerjisi ilə təmin olunması baş tutardı. Mənə elə gəlir ki, Ermənistanın nüvə energetikası kursuna sadiq qalması zərurəti barədə söhbəti nüvə enerjisi istehsalçılarının özləri uydurublar. Təbii ki, Ermənistanın indi seçimi var- ya günəş və külək enerjisini inkişaf etdirmək, ya da bu və ya digər nüvə ölkəsinin, istər Rusiya, istərsə də ABŞ-ın vəsaitlərinə arxalanmaq.

***- Bir neçə həftə əvvəl ABŞ Çin və Rusiya ilə eyni vaxtda müharibə aparmağa hazırlaşmalı olduğunu elan etdi və bununla da Vaşinqton nüvə təhlükəsizliyi strategiyasında dəyişiklik etdiyini açıqladı. ABŞ Konqresinin 2022-ci ildə yaratdığı Strateji Vəziyyət Komissiyası belə bir siyasətə çağırıb. Bu, mahiyyət etibarilə, ABŞ-ın nüvə silahı yarışına girmək üzrə olduğunu deməyə əsas verir, Rusiya və Çin isə bu yola getməyə tam hazırdır. Nüvə silahından istifadə ilə bağlı hadisələrin və münaqişələrin yaxın gələcəkdə bu cür dönüşü nə dərəcədə mümkündür?***

- Bəli, təəssüf ki, dünyanın nüvə silahı yarışına qayıtması tendensiyalarını görürəm. Buna həm mövcud nüvə silahlarının köhnəlməsi, həm də sırf fiziki səbəblərə görə modernləşdirilməsi zərurəti səbəb olur. Digər tərəfdən, dünyada qarşıdurmalar çoxalır ki, bunun nəticəsi atom silahından istifadə edilən münaqişələr ola bilər. Ölkələr tədricən silahların azaldılması sazişlərindən imtina edir və nüvə sınaqlarını bərpa etməyə keçə bilər. Bu da ətraf mühit üçün son dərəcə riskli və təhlükəlidir. Nüvə silahı sisteminin dərin modernləşdirilməsinə ilk kimin başlaya biləcəyini hələ bilmirik, lakin hər şey buna doğru gedir və bu, əlbəttə ki, çox üzücüdür, çünki belə bir yarış böyük resurs sərf edəcək. Fikrimcə, bu resurslar kütləvi qırğın silahları yaratmaq üçün deyil, insanların rifahını və ətraf mühiti yaxşılaşdırmaq üçün istifadə edilə bilər. Yada salmaq yerinə düşər ki, nüvə silahı kütləvi qırğın silahıdır və bu cür silahların istənilən modernləşdirilməsi bu və ya digər dövlətin dünya miqyasında insanları, o cümlədən mülki əhalini məhv etməyə hazır olduğunu göstərir. Onsuz da mövcud olan hərbi münaqişələrin olduğu yerlərə nüvə silahlarını əlavə etsək, ətraf mühitin radiasiya ilə çirklənməsini demirəm, insan itkisi yüzlərlə dəfə artacaq. Və dünya indi belə bir təhlükənin astanasındadır.

***- Bir nüvə fiziki və ekoloq kimi Metsamor AES-in Qafqazın ekologiyası üçün yaratdığı təhlükələri nəzərə alaraq onun tezliklə bağlanmasının tərəfdarısınızmı?***

- Gördüyüm kimi, Ermənistan indi seçimlə üz-üzədir: təhlükəli, çirkli nüvə enerjisinə malik ölkə olaraq qalsın, yoxsa dünyanın bir çox ölkələrindən, o cümlədən qonşu Azərbaycandan nümunə götürərək bərpa olunan enerjini inkişaf etdirməyə çalışsın. Bu, düşünülmüş həll tələb edən spesifik yanaşmadır: məsələn, dağlıq şəraiti ilə Ermənistan üçün günəş və külək enerjisi ən uyğun ola bilər. İndi Ermənistanda külək enerjisi azdır, lakin onun imkanlarını genişləndirmək olardı. Yeri gəlmişkən, sizə xatırlatmaq istərdim ki, bu yaxınlarda COP28 konfransında bir çox ölkələr 2030-cu ilə qədər günəş enerjisi imkanlarını 3 dəfə artırmaq qərarına gəliblər və hesab edirəm ki, Ermənistanın seçimi hələ də bərpa olunan enerji mənbələrinin xeyrinə olmalıdır. Metsamor atom elektrik stansiyası zəlzələyə meyilli ərazidə yüksək hündürlükdə yerləşən stansiya olduğundan və nüvə ilə çirklənmə təhlükəsi olduqca yüksək olduğundan bu, region üçün təhlükələri xeyli azaldardı. Əslində, bu, 60-cı illərdə hazırlanmış ilk Sovet rektorlarındandır və çox köhnədir, burada radioaktiv zonanın "ərimə teləsi" yoxdur, qoruyucu qabıq yoxdur- yəni bu obyektlərdə ümumi qəbul edilmiş müasir təhlükəsizlik avadanlıqlarının vacib elementləri yoxdur. Bütün bunlar qəzanın mümkün nəticələrini artırır, bunu istisna etmək mümkün deyil, çünki bunlar hətta Fukusimadan əvvəlki deyil, Çernobıldan da əvvəlki dövrlərə aid texnologiyalardır, bütün modernləşdirmə cəhdlərinə baxmayaraq.

Baxmayaraq ki, Ermənistan da nüvə enerjisi üçün lobbiçilik edən ölkələrin, məsələn, Ukrayna və digərlərinin təsiri altına düşə bilər. Baxmayaraq ki, qeyd edirəm ki, ABŞ nədənsə nüvə reaktorlarının tikintisində bum yaşamır- bunlar amerikalıların yalnız başqa ölkələrə ixrac üçün istifadə etdikləri texnologiyalardır, ona görə də İrəvan müsbət və mənfi cəhətləri bir daha diqqətlə ölçməlidir. Yaşıl enerjiyə alternativin olmadığına çoxdan əmin olan Azərbaycanda ən yeni bərpa olunan enerji texnologiyaları fəal şəkildə tətbiq edilir ki, buna görə də Bakının ancaq alqışlamaq olar.

***Tərcümə - Elçin Bayramlı***



**Elçin Bayramlı**

# İtirilmiş nəsil

**Son dövrlərdə gənclərin kriminal aləmə, radikal dini qruplaşmalara, kosmopolitizmə, yad dəyərlərə meyili artıb. Bunların çox sayda fundamental səbəbləri var. Cəmiyyətin quruluşu, psixoloji-mənəvi aurası, sosial-iqtisadi vəziyyəti əsas səbəblərdəndir.**

Əvvəla gənclərin enerjilərini xərcləyəcək yerləri olmalıdır. Sovet dövründə gənclər idmana, yaradıcılıq fəaliyyətinə, texniki mərkəzlərə pulsuz şəkildə cəlb edilirdi. O zaman gənclər asudə vaxtlarını səmərəli keçirirdilər. Onların zərərli meyillərə vaxtları da qalmırdı, cəmiyyət və dövlət isə onlara belə şərait yaratmamışdı da.

İndi əhalinin 90%-nin imkanı yoxdur övladlarını belə mərkəzlərə göndərsin. Qiymətlər çox bahadır. Ən ucuz idman və ya yaradıcılıq kurslarının aylıq abunə haqqı 50-100 manat arasındadır. Bir ailədə azı 2-3 uşaq olduğunu nəzərə alsaq, bu, orta statistik azərbaycanlı üçün əlçatan deyil. Nəticədə, boş qalan yeniyetmələr, gənclər zərərli şeylərə meyil edirlər. Bura narkomaniya da daxildir. Kütləvi şəkildə yayılan bəla gəncləri əlimizdən alır. Belə görünür ki, biz bunun qarşısını almaqda maraqlı deyilik. Əks halda, gənclərin birini belə boş buraxmazdıq.

Uşaq və gənclərin mənfi meyilləri məktəblərdə də müşahidə olunur. Şagirdlər məktəbə kitabla yox, smartfonla gəlir. Qızlar kosmetika ilə, oğlanlar bıçaqla, təsbehlə. Təhsil ocaqlarının əlindən tərbiyə funksiyası alınıb. Təhsil sisteminin başında yararsız eksperimentlər aparılır. Güya şagirdyönümlü təhsil sistemi qururuq. Buna görə də məktəblərdə anarxiya yaranıb. Nəticə özünü göstərir.

Gənclər internetdəki biabırçı fəaliyyətlərinə real həyatda da davam edirlər. Bir çox valideynlər övladlarını kiçik yaşdan taleyin ümidinə buraxıb. Hər azyaşlının əlində bahalı smartfon var. İnternetdən yaşlarına uyğun olmayan, zərərli materiallara baxırlar. Psixologiyaları altüst olur. Təsir altına tez düşürlər.

Valideynlər psixoloqların dedikləri cəfəngiyyatları kənara atıb, uşaqlara köhnə qaydada tərbiyə verməlidirlər. "Uşağa dəymə", "azadlıq ver" deyərək, ortaya belə kütlə çıxarmışıq. Bu da xalqın gələcəyinin indidən məhv edilməsi deməkdir. Media kriminal seriallar, axmaq şoular, zərərli verilişlər nümayiş etdirir. Əvvəllər televiziyalarda uşaqlar, gənclər arasında intellektual yarışlar olurdu. İndi AzTV-dən başqa heç bir kanalda bunu görmürük. AzTV-dəki belə verilişlərə isə valideynlər uşaqlarını baxdırmırlar. Başqa kanallarda intellektual verilişlər demək olar ki, yox dərəcəsindədir- İTV istisna olmaqla. Əvəzində onlara fasiləsiz əyləncə, arsızlıq, eqoistlik, özünəvurğunluq, maddiyyata tapınma, pulun yeganə dəyər olduğu təbliğ olunur.

Məktəblərdə baş verənləri, uşaq cinayətlərinin, narkomaniyanın ildırım sürəti ilə artmasını görürük. Belə çıxır ki, biz bunları gördüyümüz halda qarşısını almağa ya maraqlı deyilik, ya da acizik. Maraqlı olsaydıq, tədbirlər görərdik. Əksinə, "müasirlik", "azad cəmiyyət" deyərək, "kim nə istəyir etsin" prinsipi ilə hərəkət edirik. Kitab oxuyan, teatra, muzeyə gedən uşaq, gənc görürsünüz ətrafınızda? Demək olar ki, yox. Bu halda hansı sağlam gənclikdən danışmaq olar?

Əmin olun ki, 90% gəncin mənəvi, mədəni irsimizdən xəbəri yoxdur. Böyük tarixi şəxsiyyətlərimizdən, dünyanın bu gün də öyrəndiyi alimlərimizdən, filosof-şairlərimizdən, tariximizdən, mədəniyyətimizdən bixəbərdilər. İnanmırsınız çıxın küçəyə qarşınızdan gələn 20 gəncə bir neçə sual verin və cavablara baxın. Bu, min illərlə gələn milli-mənəvi dəyərlərimizin qırılma nöqtəsidir. Bundan sonra gələn nəsil sanki bizə aid deyil. Azərbaycanlı olmaq xüsusiyyətini itiririk.

Ümumən, cəmiyyətin ab-havası sonrakı nəsilləri formalaşdırır. Bunların günahkarı indiki uşaqlar, gənclər deyil. Günahkar bizim nəsildir. Biz cinayətkar nəsilik. Çünki özümüzdən sonra gələnlərə mənəvi, milli dəyərləri, əxlaqı sistemi ötürə bilmədik. Biz bunu bacarmadıq. Ona görə də, indi uşaqlar, gənclər yad ideologiyalarla böyüyürlər.

Nəsə edə bilərikmi? Əlbəttə! Sadəcə, etmək istəmirik. İstəsək, hər şey etmək olar. Gənclərlə bağlı xüsusi dövlət proqramı olmalıdır. Cəmiyyət isə özünə gəlməlidir. Azadlığın anarxiya demək olmadığını artıq həm əyani, həm qiyabi olaraq görmüşük. Əgər sağlam gələcək istəyiriksə, bu işlərə dünəndən başlamalıyıq. Çünki artıq az qala gecdir.

ŞƏRH+ANALİTİK

# O, yenə də boş-boş danışır

## Paşinyan: "Qarabağın əvəzinə Meğrini versəydik..."







***Nikol Paşinyan Ermənistan İctimai Televiziyasına müsahibə verərkən müxtəlif məsələlər barədə danışıb. Verilən sualları cavablandıran Paşinyan bildirib ki, ermənilərin Qarabağdan çıxarılmasını planlaşdıran və həyata keçirən insanlar hesab edirlər ki, Qarabağ məsələsi həll olunub, indi növbə Ermənistanındır. Erməni baş nazir, eyni zamanda, münaqişənin tarixinə nəzər salıb və 1990-1991-ci illərdə Ermənistan liderlərinin buraxdıqları səhvlərdən bəhs edib.***

### ”Müxalifət nümayəndələri deyirlər ki, Ermənistanın Qarabağsız mövcudluğunun heç bir mənası yoxdur”

”Həmin dövrdəki liderlər demirdilər ki, Ermənistana dövlət olmaq üçün müstəqillik lazımdır, onlar deyirdilər ki, ”Dağlıq Qarabağ” (Qarabağ) problemini həll etmək üçün müstəqil dövlət lazımdır. İndi müxalifət nümayəndələri deyirlər ki, Ermənistanın Qarabağsız mövcudluğunun heç bir mənası yoxdur, çünki Ermənistan respublikasının dövlətçiliyi Qarabağ məsələsinin həlli üçün yaradılıb. Yəni, Qarabağ məsələsi həll olunsaydı, Ermənistanın taleyi necə olacaqdı?”

### ”Ermənistanda yeni hökumət qurulmalıdır”

O həmçinin bildirib ki, digər ölkələrdən Ermənistanda hakimiyyət dəyişikliyi ilə bağlı çağırışlar olub. ”Bu çağırışları edən insanlar düşünürlər ki, Qarabağ məsələsi həll olunub və deməli, Ermənistan məsələsi də həll olunmalıdır. Yəni, konsepsiya tamamlanmalı, Ermənistanda yeni hökumət qurulmalıdır”, - deyə Paşinyan müsahibəsində bildirib.

### ”1999-cu ildə bir variant var idi...”

Sonrakı ifadələrində münaqişənin gedişi zamanı Ermənistanın əldən verdiyi üstünlüklərə toxunan baş nazir etitaf edib ki, bir neçə dəfə Ermənistan təklifləri dəyərləndirməyib: ”Elə bir sənəd olmayıb ki, imzalanandan sonra Qarabağ münaqişəsinin həlli başa çatsın. 1999-cu ildə bir variant var idi. Həmin sənəd imzalansaydı, Qarabağ məsələsi birdəfəlik həll oluna bilərdi. Bu, Meğri rayonu ilə ”Dağlıq Qarabağın” mübadilə variantı idi. Bəlkə də həmin vaxt mübadilə baş tutsaydı, məsələ çoxdan öz həllini tapmışdı”.

### O, bu dəfə də əlində olan şansı istifadə etmir

Paşinyan Qarabağ məsələsinin uzanmasını məqsədli şəkildə Ermənistana və Azərbaycana qarşı istifadə edildiyini də iddia edib. Lakin maraqlı məqam budur ki, Paşinyan sadəcə danışır və Azərbaycanla sülh müqaviləsini imzalama prosesini yubadır. Maraqlıdır ki, o, bu dəfə də əlində olan şansı istifadə etmir, regionun sülhə doğru inkişaf prosesini gecikdirir və gecikdirdikcə rəhbərlik etdiyi ölkəsinin uçuruma doğru yuvarlanması faktını reallaşdırır.

***Afət Tahirqızı***

# Radikal müxalifətçilər xalqın səsini yox, nifrətini qazana biliblər

## *KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

**“Yeni Azərbaycan Partiyasının idarə heyətinin 15 dekabr 2023-cü ildə keçirilən genişləndirilmiş iclasında partiyanın sədri cənab İlham Əliyevin 2024-cü ilin fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində YAP-dan namizəd irəli sürülməsi ölkə vətəndaşları, eləcə də əksər siyasi partiyalar tərəfindən rəğbətlə qarşılanmasına baxmayaraq, AXCP və Müsavat partiyalarını yenə də məyus etmişdir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**

Komitə sədri vurğulayıb ki, bu partiyalar növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar sərəncam imzalandığı ilk gündən yenə də aqressiv mövqe nümayiş etdirmiş, qarayaxma və böhtan kampaniyasına başlamışlar.

”Hər iki partiya seçki prosesinə qoşulmaqdan boyun qaçırmışdır. Bu partiyalar seçkilərin vaxtından əvvəl keçirilməsini qanunauyğun hesab etməməklə ona hazır olmadıqlarını bəhanə edir və seçkiləri boykot edəcəklərini bildirirlər. Çox gülməlidir. Ona görə ki, Əli Kərimli ölkədə özünü aparıcı müxalifət partiyasının rəhbəri hesab etməklə, həmişə xalqın AXCP-yə böyük ümidlə yanaşdığını və onun tərəfində olduğunu bildirirdi. Onu da xatırladırdı ki, partiya hakimiyyətə gəlməyə hazırdır və biz bunu sivil yolla, azad seçkilər vasitəsi ilə həyata keçirəciyik. Bu gün Azərbaycanda azad seçki keçirilməsi üçün hər cür imkan və şərait yaradıldığı halda, bu iki partiyanın seçkilərə qoşulmamalarının səbəbi sözsüz ki, hər birimizə yaxşı məlumdur. Necə ola bilər ki, 30 ildən çox fəaliyyət göstərən, həmişə xalqa yağlı vədlər verən, tərəfdarlarının həddən ziyadə çox olmasını göstərən bir partiya seçkilərə hazır olmamış olsun? Bu, əlbəttə, uğursuzluqları pərdələməkdir, əsas məsələ başqadır.





Axı AXCP və Musavat seçkilərdə insanların qarşısına hansı üzlə, hansı nəticələrlə çıxacaq və onlara nə deyəcəkdir? Deyəcəklər ki, biz xarici ağalarımızdan maliyyə vəsaitləri əldə edib dövlətin və xalqın əleyhinə təbliğat aparmışıq, yaxud şanlı qələbələrimizə kölgə salmışıq, hər vasitə ilə ermənilləri dəstəkləmişik, yaxud da ölkədə aranı qatışdırmağa, insanları qızışdırmağa, üzbəüz qoymağa çalışmışıq? Özlərini ”böyük siyasi qüvvə”, real müxalifət adlandırılanların axı dünəni də, bu günü də çirkab içərisindədir. Axı xalq bu adamları uzun müddətdir satqın, yaramaz, yalançı donunda görür və onların keçmişindən yaxşı xəbərdardır. Belə olan halda Əli Kərimli, Arif Hacılı və başqaları xalqın səsini necə əldə edə bilərlər və hansı yaxşı işlərini xatırlatmağa qadirdirlər?

İqtidarın, cənab İlham Əliyevin fəaliyyəti isə göz qabağındadır. Qazanılan yüksək iqtisadi göstəricilər, beynəlxalq aləmdə əldə edilən nəticələr, həyata keçirilən sosial layihələr, proqramlar, enerji, nəqliyyat sektorunun inkişafındakı irəliləyişlər, işğaldan azad olunmuş ərazilərin bərpası sahəsində həyata keçirilən tədbirlər bir yana qoyulsa, Ali Baş Komandanın 44 günlük müharibədə və 23 saatlıq antiterror tədbirlərində nümayiş etdirdiyi məharət, cəsarət, siyasi gediş cənab İlham Əliyevin ömürlük Azərbaycan Prezidenti olmasına bir zəmanətdir.

Bu gün Azərbaycan Prezidentinin özünü təbliğ etməsinə ehtiyac yoxdur. 20 illik çoxsahəli fəaliyyət, əldə olunan uğurlarla cənab İlham Əliyev özünü Prezident kimi təsdiq edib və xalqın böyük hörmət və ehtiramını qazanıbdır. Radikal müxalifətçilər isə yalnız xarici ölkələrdən yaxşı qrant, göstərişlər və bir də xalqın nifrətini, qəzəbini qazana biliblər. Bu nifrət isə günü-gündən genişlənir və çox çəkməyəcək ki, bu başabəlalar tarixin siyasi arxivinə göndəriləcəklər”, - deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Qarabağın iş imkanları bölgəyə nə vəd edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti çərçivəsində hazırlanıb*













**Uzun müddətdir işğal altında olan torpaqlarımız azad edildikdən sonra həmin ərazilərdə çox sürətlə yenidənqurma, abadlıq işləri vüsət aldı. Yaşayış binaları, parklar, iaşə obyektləri, müəssisələr, zavod və fabriklər inşa edildi. Uzun müddətdir ki, Qarabağa köç başlayıb, Bakıda və ölkənin digər yerlərində məskunlaşmış məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar. Onların evlə təminatı uğurla aparılır, lakin maraqlıdır, geri qayıdan əhalinin iş imkanları nə qədər geniş olacaq? 30 ildən sonra Qarabağa qayıdan yerli əhali nə işlə məşğul olacaq?**

## Qarabağa nə qədər sakin qayıdıb?

Məlumat üçün qeyd edək ki, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunan ərazilərə indiyə qədər 6500 nəfər keçmiş məcburi köçkün köçürülüb. Köçürülən əhalinin işlə təminatında müəyyən addımlar atılır. Böyük Qayıdış proqramına uyğun olaraq, işğaldan azad olunan ərazilərə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması istiqamətində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həmin sakinlərin məşğulluq imkanlarının qiymətləndirilməsi məqsədilə söhbətlər aparır.

Doğma yurdlarına köçürülən sakinlərin uyğun vakansiyalar üzrə işlə təminatı, özünüməşğulluq proqramına cəlbi, eləcə də sakinlərdən bir qisminin yeni peşələrə yiyələnmələri məqsədilə peşə hazırlığı kurslarının təşkili üzrə tədbirlər davam etdirilir. Görülən işlərin nəticəsi olaraq artıq Ağalı kəndinin 200-dək sakini Dövlət Məşğulluq Agentliyi tərəfindən aktiv məşğulluq proqramları ilə əhatə olunub. Onlardan 178 nəfəri Agentliyin dəstəyi ilə işlə təmin olunub və daha bir qrup sakinin də məşğulluğunun təminatı üçün işlər aparılır. Həmin kənddə artıq 11 sakin üçün özünüməşğulluq proqramı çərçivəsində mal və materiallar formasında aktivlər də verilərək kiçik təsərrüfatlar yaradılıb. Kənd sakinlərindən 21 nəfər isə əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı kurslarına cəlb edilib.

Böyük Qayıdış proqramı çərçivəsində Tərtərin Talış kəndində də sakinlərin məşğulluğuna dəstək tədbirləri görülür. Agentliyin nümayəndələri kəndə köçürülən ailələrlə görüşlər keçirib və təhlillər aparılaraq məşğulluq tədbirlərinə cəlb edilə biləcək şəxslər müəyyənləşdirilib. Bunun nəticəsi olaraq kəndin artıq 40-dək sakininin məşğulluğu təmin edilib. Onlardan bir qismi müxtəlif vakansiyalar üzrə işlə təmin olunublar. Digər mühüm məşğulluq istiqaməti kimi, kənd sakinlərinin özünüməşğulluq proqramına cəlb olunması işləri də aparılır. Agentlik artıq 9 kənd sakinini özünüməşğulluq proqramına cəlb edilib.

## Yeni iş yerləri açılıb

Böyük Qayıdış proqramı üzrə görülən işlər çərçivəsində Laçın və Füzuli şəhərinə köçürülən sakinlərin də aktiv məşğulluq proqramları ilə əhatə olunması üçün işlərə başlanıb. Dövlət Məşğulluq Agentliyi tərəfindən ilk mərhələdə həmin sakinlərin məşğulluq imkanlarının qiymətləndirilməsi üçün onlarla görüşlər keçirilib. Növbəti mərhələdə sakinlərin 400-dən çox şəxsin münasib vakansiyalar üzrə işlə təminatı həyata keçirilib. Bir qrup şəxsin isə özünüməşğulluq proqramına cəlbi, eləcə də sakinlərdən bir qisminin yeni peşələrə yiyələnmələri məqsədilə peşə hazırlığı kurslarının təşkili işləri aparılacaq.

Eyni zamanda, Dövlət Statistika Komitəsinin məlumatına görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə ötən ilin payızında 2023-cü ilin məhsulu üçün 210 min 478 hektar sahədə dən və yaşıl yem əkilib. Cari ilin yanvar-iyulunda adıçəkilən iqtisadi rayonlarının fermer və fərdi təsərrüfatları tərəfindən, ümumilikdə, 105 min hektardan artıq sahədə məhsul yığımı həyata keçirilib. Həmin sahələrdən isə 401 min tondan artıq dənli bitkilər yığılıb. Bununla yanaşı, bu ilin 7 ayında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təsərrüfatlarında 1043 ton dən üçün günəbaxan, 16 min 515 ton kartof, 165 min 816 ton tərəvəz, 51 min ton bostan məhsulları, eləcə də 21,3 min ton meyvə və giləmeyvə tədarük edilib.

Nəticə olaraq, 2023-cü ilin doqquz ayında Qarabağ İqtisadi Rayonunda 742 yeni iş yeri yaradılıb, ötən ilin eyni dövründə isə bu rəqəm 663 yeni iş yeri olub. Dövlət Statistika Komitəsinin hesabatında bildirilir ki, bu, illik müqayisədə 79 yeni iş yeri (11,9%) çox deməkdir. Hesabat dövründə iş yerlərinin 105-i Ağcabədidə, 64-ü Ağdamda, 63-ü Bərdədə, 34-ü Füzulidə, 5-i Xocalıda, 46-sı Xocavənddə, 262-si Şuşada, 163-ü Tərtərdə yaradılıb. 2023-cü ilin iyunun sonuna Qarabağ iqtisadi rayonunda orta əməkhaqqı 594,5 manat, Şərqi Zəngəzur iqtisadi rayonunda 645,1 manat təşkil edib. 2022-ci ildə Qarabağ iqtisadi rayonunda 905, Şərqi Zəngəzurda 223 yeni iş yeri yaradılıb.

## 600 min hektar torpaq əkilməyi gözləyir

Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. 2023-cü ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək.

Ümumiyyətlə, proqnozlara əsasən, işğaldan azad edilən bölgələrimiz gələcəkdə 10 milyard manat gəlir formalaşdıracaq ki, bu da ümumdaxili məhsulun inkişafına təkan verəcək. Çünki həmin bölgələrin müxtəlif sahələr üzrə böyük iqtisadi potensialı var. Yəni, həm kənd təsərrüfatı, həm sənaye, həm də xidmət sektorları üzrə geniş imkanlar mövcuddur. Xüsusilə, azad edilən ərazilərin turizm potensialı olduqca böyükdür. Həmçinin, bu torpaqlar heyvandarlıq, meyvəçilik, bitkiçilik, emal sənayesi üzrə geniş imkanlara malikdir. Təkcə kənd təsərrüfatı üzrə 600 min hektar torpaq əkilib-biçilməyə hazırdır.

İşğaldan azad edilmiş ərazilərdə azad iqtisadi zonaların, aqroparkların salınması və fəaliyyəti həyata keçirilir. Əlavə olaraq, geniş infrastruktur layihələrinin həyata keçirilməsi, hava limanlarının salınması həmin bölgələrin ixrac potensialı və sahibkarlığın inkişafına xidmət edəcək. Bölgədə iqtisadiyyat inkişaf etdikcə, məşğulluq imkanları da yaranacaq, bu da yeni iş yerlərinin açılması deməkdir.

Qeyd edək ki, azad edilən ərazilərə köçürülən və işləməyən ailələrə 600 manat vəsait ödənilir, həmçinin orada fəaliyyət göstərən işçilərin təmin olunduğu məvacib digər bölgələrdə çalışanların əməkhaqlarına nisbətən daha çoxdur.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
21 dekabr
2023-cü il

# “Uşaq özünə qapalıdırsa, bu, valideynlərə bir siqnal olmalıdır”



*PSİXOLOQ*

“Yəqin ki, bir çoxumuzun ətrafında çəkingən, ünsiyyət qurmayan, özünə qapanan uşaqlar var. Bu məsələ ilə bağlı biz psixoloqlar da son zamanlar çox müraciətlər alırıq. Valideynlər bu vəziyyətdən şikayət edirlər, xüsusən yeniyetmələrdə bu kimi hallarla tez-tez qarşılaşırıq. ”Bunu depressiya adlandırmaq olarmı? və ya Uşaqlar depressiyaya düşə bilərmi? Valideynlər bunu uşaqlarının hansı davranışlarından anlamalıdırlar?” tipli suallar ünvanlanır. Özgüvəni aşağı olan, ünsiyyət çətinliyi, mutizmi olan, özünəqapanmaları olan uşaqlarda depressiv hallar müşahidə oluna bilir”. Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman- Klinik psixoloq Narınc Rüstəmova deyib.

Onun sözlərinə görə, xüsusilə burada mutizmi vurğulamaq lazımdır: ”Uşaq stress yaşadıqda, müxtəlif travmalar keçirdikdə və sosiallaşa bilmədikdə bu problem daha çox müşahidə olunur. Həmçinin nitq inkişafında gerilik olan uşaqlarda, xroniki xəstəlikləri və bir neçə dəfə əməliyyat keçirmiş uşaqlarda da mutizm çox görülən haldır. Belə uşaqlar cəmiyyətə adaptasiya ola bilmir və özlərini ifadə edə bilmirlər. Bu zaman onlar ”özünü kilidləməklə” heç kimlə kontakta girməməklə çıxış yolu tapırlar. Ona görə də zamanla bu vəziyyət depressiv hala keçə bilir. Vəziyyətin korreksiya edilməsi üçün mütləq zamanında psixoloji terapiya lazımdır. Psixoloq uşağın özgüvənini qaldırmalı, yaşadığı travmanı məsələn: ailədaxili şiddət ola bilər və ya məktəbdə, bağçada yaşadığı hansısa hadisə ola bilər ki, bunu aşkar etməli və etablı şəkildə bu problemlərin üzərində işləyib korreksiya etməlidir. Mutizimin daha çox görüldüyü yaşlar 6-7 yaş dönəmidir. Əgər övadınız ətrafında çox az insanla kontakta girirsə, bildiyi şeylərə də cavab vermək istəmirsə, çəkinirsə, özünə qapanıqdırsa bu valideynlərə bir siqnal olmalıdır. Bu halda zamanında psixoloqa müraciət olunarsa effektiv nəticə alına bilər. Əks halda belə vəziyyət irəlilədikcə, daha da ağırlaşdıqca və zamanında müdaxilə olunmadıqca xüsusilə yeniyetmələrdə özünə xətər yetirmə, evdən qaçma və s kimi yanlış hadisələrin yaşanmasına gətirib çıxara bilir. Bu da müdaxiləsi gecikdirilmiş depressiv hallarda müşahidə oluna bilir.

Eyni zamanda praktikada bir çox hallarda yeniyetmələrin aqressivlik nümayiş etdirdiyini və psixoloqa gəlmək istəməmələrini müşahidə edirik. Belə olan halda ən optimal çıxış yolu ailə terapiyasıdır. Yəni ilk öncə bir neçə dəfə valideynlər özləri seanslara gəlməli və bunun çox normal bir şey olduğunu övladına izah etməlidir. Beləcə artıq bir müddət sonra yeniyetmə heç bir kənar müdaxilə olmadan ailəsi ilə birlikdə özü psixoloq qəbuluna getmək istəyəcək. Psixolji dəstək, psixoloqun və ailənin yardımları ilə yeniyetmələr bir müddət sonra bu kimi hallardan azad ola, qurtula bilər.”

***Səbinə Hüseynli***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

*EKSPERT AÇIQLADI*

# Evdə təhlükəsizliyi necə təmin etməli?



“Ümumiyyətlə, evlərdə, iş yerlərində səfərlərə gedərkən, istirahət yerlərində və sairə, təhlükəsizlik məsələləri ön planda olmalıdır. Yəni, iş görəndə getdiyin yerdə təhlükə risklərini minimuma endirmək lazımdır. Söhbət insanları gözləyən potensial təhlükədən gedir. Evlərdə bütün təhlükə risklərinə qarşı ilkin məlumat olmalı, önləyici, profilaktik tədbirləri almalı və bunu təşkil etməlidirlər”. Bu sözləri SİA-ya təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev deyib.



Onun sözlərinə görə, evdə qaz, su, işıq təchizatı varsa, onların təhlükəsiz istismarı lazımdır: ”Evin eyvanı varsa, hündürmərtəbəli binada yerləşirsə, demək ki, burada yıxılma təhlükəsi var. Evdə saxlanılan əşyalar, əşyaların dağılma təhlükəsi var, nəticədə isə kimsə xəsarət ala bilər. Həmçinin dərman vasitələri varsa, zəhərlənmə riski var. Evdə kimyəvi tərkibli yuyucu məhsulların hər birinin təhlükə riski var. Yəni diqqət edəndə görürük ki, yaşadığımız yerdə nə qədər çox təhlükə riski var və bunların hər birinə qarşı qabaqlayıcı tədbirlər olmalıdır ki, bədbəxt hadisə baş verməsin, kimsənin həyatına, sağlamlığına təhlükə olmasın. Bu məsələlər ciddiyə alınmazsa, ani diqqətsizlik, məsuliyyətsizlik əlbəttə ki, bədbəxt hadisəni qaçılmaz edir”.

Ekspert təhlükəsizliklə bağlı bir sıra tövsiyələrini də bildirib: ”Evə daxil olarkən elektrik cihazlarını işə salmazdan əvvəl evdə qaz qoxusunun olub-olmamasına mütləq diqqət etmək, daha sonra işığı yandırmaq lazımdır. Ümumiyyətlə, yaxşı olardı ki, evə daxil olarkən ilk öncə evin havası dəyişilsin. Xüsusən də evdən çıxarkən qaz təchizatına ciddi diqqət etməli, onu söndürüb çıxmaq lazımdır. Əgər qaz kustar üsulu ilə çəkilibsə, bu hər zaman təhlükə riskinin olması deməkdir.

Diqqət edəndə görürük ki, evlərdə, ofislərdə baş verən yanğınlar əsasən elektrik təchizatındakı nasazlıqla bağlı olur. Elektrik təchizatları daim saz vəziyyətdə olmalıdır. Ola bilər ki, ev yeni alınanda və yaxud təmir olunanda elektrik təchizatına diqqət edilməyib və ya zədələnib, elektrik naqilinin gücü düzgün hesablanmayıb, əlavə qurğular quraşdırılıb ki, bu da naqildə yüklənməyə, qısaqapanmaya, yanğına səbəb olur. Ona görə də bu cür risklər əvvəldən gözə alınmalıdır. Təhlükəsizlik məsələsi hər zaman ön planda olmalıdır. Çünki hər şeydən qiymətli insanların sağlam həyatıdır”.

***Ləman Sərraf***

# Braziliya millisində Neymar ŞOKU



Futbol üzrə Braziliya millisinin məşhur üzvü Neymar 2024-cü il Amerika Kubokunu buraxacaq. Bu barədə Braziliya millisinin həkimi Rodriqo Lasmar danışıb. O bildirib ki, hücumçu oktyabr ayında aldığı zədədən sonra əməliyyat olunub:

”Vaxt azdır, hələ tezdir, lazımsız riskə getməyin mənası yoxdur. Avqustun əvvəlində Avropada 2024/2025 mövsümü başlayır. Həmin vaxta kimi onu bərpa etməyə çalışacağıq. Səbirli olmalıyıq. Neymarın 9 aydan tez qayıtmasını gözləmək olmaz. Bədənin bu bağı meydana gətirməsi üçün vaxt lazımdır. Bu müddətdən sonra onun yüksək səviyyədə bərpa olunacağı gözlənilir”.

## ELAN

Məmmədov İsa Vaqif oğluna məxsus Naxçıvan Muxtar Respublikası Hərbi Komissarlığı tərəfindən verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4000**